RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 51 (10071) 19 mart 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qarabağda növbəti Novruz təntənəsi



## Prezident İlham Əliyev Xocavəndin Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş və nəzərdə tutulan işlər barədə məlumat verdi.

Xanoba kəndi Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə yerləşir. Bura Qarabağ xanlarına məxsus olmuş yaşayış məntəqəsidir. İşğaldan əvvəl kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və rabitə şöbəsi fəaliyyət göstərib. Kənd Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Kənddə mövcud fərdi evlərin sayı 153-dür. Onlardan da 21-i yararsız, 132-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 26-sı artıq istismara hazırdır. Bu ilin sonunadək daha 106 ev hazır olacaq.

Bir neçə gün əvvəl ilkin mərhələdə kəndə 25 ailə - 114 nəfər qayıdıb. Oktyabradək daha 107 ailənin köçürülməsi planlaşdırılır. Ümumilikdə ötən ilin oktyabrından Xocavənd rayonunun 6 yaşayış məntəqəsinə 1818 nəfər - 441 ailə qayıdıb.

Xanoba kəndində sosial məsələlərin həlli istiqamətində bir sıra işlər görülüb. Kənddəki mövcud 2 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa olunub, eyni zamanda yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyusunda və nasos stansiyasında təmir işləri aparılıb.

2-3

## Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərməğanıdır

### Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər diləyirəm.

Azərbaycan torpağında çox qədim köklərə malik Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərməğanıdır. Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır.

Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir. Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüz illərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

Əminəm ki, yaz fəslinin yeniləşdirici abhavası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik.

Qoy qarşıdan gələn Novruz bayramı qəlblərinizi nurla doldursun, hamınıza xoş bahar əhvali-ruhiyyəsi bəxş etsin, evinizə, ocağınıza əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2026-cı il*

## İlham Əliyevlə Fridrix Merts arasında telefon danışığı olub



**Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts arasında telefon danışığı olub.**

Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

Fridrix Merts Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesini alqışlayıb, bunun regional sabitlik üçün əhəmiyyətini qeyd edib.

Azərbaycan Prezidenti və Almaniya Kansleri ikitərəfli münasibətlərin perspektivlərini, həmçinin ölkəmizlə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Regional liderlik missiyası

### Prezident İlham Əliyev Azərbaycanı qlobal proseslərdə söz sahibi olan ölkəyə çevirib



Bu gün beynəlxalq birlik Azərbaycanı təkcə enerji resursları ilə zəngin olduğuna görə yox, həm də regionun taleyini həll edən, sülhün və əməkdaşlığın əsas ünvanı olan ölkə kimi qəbul edir. Yürüdülən uzaqgörən siyasət nəticəsində Azərbaycan dünyada söz sahibi olan, rəyi soruşulan və etibarlı tərəfdaş kimi tanınan qüdrətli güc mərkəzinə çevrilib.

Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıq sülhə və qarşılıqlı hörmətə söykənir. İşğala son qoyulmasından sonra ölkəmizin irəli sürdüyü sülh gündəmi həm regional, həm də dünya miqyasında yüksək qiymətləndirilir. Buna rəsmi Bakı ilə yüksəksəviyyəli diplomatik təmasları misal göstərmək olar.

Martın 17-də Prezident İlham Əliyevlə Almaniya Kansleri Fridrix Merts arasında telefon danışığı olub. Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

Fridrix Merts Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesini alqışlayıb, bunun regional sabitlik üçün əhəmiyyətini qeyd edib.

Azərbaycan Prezidenti və Almaniya Kansleri ikitərəfli münasibətlərin perspektivlərini, həmçinin ölkəmizlə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Prezident İlham Əliyevlə Almaniya Kansleri Fridrix Merts arasında baş tutan telefon danışığı rəsmi Bakının Avropa üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha təsdiqlədi. Bu, ölkəmizin sabitləşdirici roluna verilən beynəlxalq qiymət olmaqla yanaşı, Prezident İlham Əliyevin yürütdüyü balanslı və prinsipial diplomatiyanın məntiqi nəticəsidir.

8



## Prezident İlham Əliyevin sosial media hesablarında Novruz bayramı ilə bağlı paylaşım edilib

Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Novruz bayramı ilə bağlı video paylaşılıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir".

## Azərbaycan Prezidentinin tapşırığı ilə İrana növbəti humanitar yardım yola salınıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, İran İslam Respublikasına növbəti humanitar yardım yola salınıb.**

AZƏRTAC xəbər verir ki, yardım prezidentlər İlham Əliyev və Məsud Pezeşkian arasında 2026-cı il martın 8-də baş tutmuş telefon danışığına uyğun olaraq həyata keçirilib. Məqsəd qonşu və dost İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək göstərməkdir.

Göndərilən budəfəki humanitar yardımın ümumi həcmi 82 ton təşkil edir. Yardıma 76 ton ərzaq və qida məhsulları, 4 ton dərman vasitəsi, həmçinin 2 ton tibbi ləvazimat daxildir.

Humanitar yük 5 yük avtomobili (TIR) vasitəsilə yola salınıb.

Eyni zamanda Novruz bayramı ərəfəsi nəzərə alınaraq, yardım karvanına bayram sovqatı və müxtəlif Novruz məhsulları da əlavə edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası tərəfindən göndərilən növbəti humanitar yardımın müşayiət olunması və qarşı tərəfə təqdim edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının, Xarici İşlər Nazirliyinin, Azərbaycan Dövlət Ehtiyatları Agentliyinin rəsmi şəxsləri İran İslam Respublikasına səfərə yola düşüblər.

# Qarabağda növbəti Novruz təntənəsi

## Prezident İlham Əliyev Xocavəndin Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub









*Əvvəli 1-ci səh.*

Sonra dövlətimizin başçısı və birinci xanım kəndə köçmüş Bəybala Qasımovun evində olublar.

**Sakin:** Xoş gəlmisiniz, cənab Ali Baş Komandan.

**Prezident İlham ƏLİYEV:** Salam. Necəsən? Maşallah.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Təbrik edirəm bayramınızı.

**Qadın sakin:** Çox sağ olun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Təbrik edirəm.

**Qadın sakin:** Çox sağ olun, var olun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Balaca gözdən sizə oxşayır. Neçə yaşın var, Ayaz? Ayazın neçə yaşı var?

**Qadın sakin:** Üç.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Üç? Sən nə yaxşı hündürboy oğlansan? Mən elə bildim 5 yaşın var sənin. Maşallah. Gedək.

**Qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Şəraitiniz necədir?

**Sakin:** Şükür, hər şey yaxşıdır. Allah Sizdən razı olsun. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Amin.

**Sakin:** Allah Sizi başımızın üstündən əskik eləməsin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Bayram ərəfəsində burada, Qarabağda olmaq çox xoşdur, təbrik edirəm.

**Sakin:** Allah köməyiniz olsun, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə harada yaşamısınız?





**Sakin:** Ağcabədidə.

**Prezident İlham ƏLİYEV:** Neçə gündür gəlmisiniz?

**Sakinlər:** 3-4 gündür.

**Prezidentin xüsusi nümayəndəsi Emin HÜSEYNOV:** Bir neçə ailədir. Valideynləri də köçüblər, qonşudurlar.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Qırmızı "KamAZ" olacaq.

**Sakin:** Allah Sizdən razı olsun, Allah Sizə kömək olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Gedək göstərək bizim maşını.

**Birinci xanım Mehriban ƏLİYEVA:** İstəyirsən maşına minmək?

**Qadın sakin:** Maşına baxırsan?

**Birinci xanım Mehriban ƏLİYEVA:** İstəyirsən?

**Uşaq:** Hə.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Gedək. Gəl, otur görək.

**Prezident İlham ƏLİYEV:** Xoşuna gəlir bu maşın?

**Birinci xanım Mehriban ƏLİYEVA:** Yaxşı maşındır? Bu yaxşıdır, yoxsa "KamAZ" yaxşıdır?

**Uşaq:** Hə.

**Birinci xanım Mehriban ƏLİYEVA:** "KamAZ". Gəl öpüm səni. Babanı da öpürsən?

**Sakin:** De, sağ ol, baba.

**Uşaq:** Mən sənin maşınını istəyirəm.

**Birinci xanım Mehriban ƏLİYEVA:** İstəyirsən, yaxşı. Sağ olun, təbrik edirəm.

**Sakinlər:** Sağ olun, Allah köməyiniz olsun.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xanobaya qayıdan kənd sakinləri ilə görüşüblər.

Dövlətimizin başçısı Xanoba kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıb.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakinləri ilə söhbət ediblər.

**Prezident İlham ƏLİYEV:** Salamaleyküm, bayramınız mübarək, təbrik edirəm.

**Sakin:** Salam, sağ olun, Sizinlə bahəm. Sizi də təbrik edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Cənab Prezident, xoş gəlmisiniz, bayramınız mübarək olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Cənab Prezident, Allah Sizə dəyməsin. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, sizə də cansağlığı arzulayıram. İşlər necə gedir?

**Sakinlər:** Əla, çox gözəl.

**Prezident İlham ƏLİYEV:** Neçə gündür buradasınız, üç-dörd gündür buradasınız?

**Sakinlər:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Ev şəraiti necədir?

**Sakin:** Əladır, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Bu kənddə bütün şərait var, yaşamaq, işləmək üçün.

**Sakin:** Var, şükür Allaha.

**Prezident İlham ƏLİYEV:** Əsas odur ki, doğma Qarabağ torpağına qayıtmısınız. Qarşıdan gələn bayramlar münasibətilə təbrik edirəm. Həm Ramazan, həm Novruz bayramlarını burada - doğma Qarabağ diyarında qeyd edəcəksiniz. Bu, böyük xoşbəxtlikdir. Uzun fasilədən sonra artıq bu bayramları doğma vətəndə qeyd edəcəksiniz.

**Sakinlər:** Çox sağ olun, Sizin sayənizdə, Allah Sizə ömür versin.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə harada yerləşmişdiniz?

**Sakin:** Xocavənd qəsəbəsində.

**Prezident İlham ƏLİYEV:** Dövlət tərəfindən tikilən qəsəbədə?

**Sakinlər:** Bəli, Sizin sayənizdə tikilmiş binalarda yerləşmişdik.

**Prezident İlham ƏLİYEV:** Novruz tonqalı da buradadır, gedək birlikdə onu alovlandıraq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sakinlərlə birlikdə Novruz tonqalını alovlandırdılar.

**Prezident İlham ƏLİYEV:** Gəlin, birlikdə şəkil çəkdirək.

Şəkil çəkdirilir.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Sağ olun, bir daha təbrik edirəm, uğurlu olsun.

**Sakin:** Çox sağ olun, minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Doğma vətəndə.

**Sakin:** Sizin sayənizdə, Allah Sizə cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Şəhidlərimizin, qazilərimizin sayəsində.

**Prezident İlham ƏLİYEV:** Bəli, Allah rəhmət eləsin.

**Sakin:** Allah şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə cansağlığı, Sizə də uzun ömür arzulayırıq. Hər zaman xalqımızın başının üstündə olasınız.

**Sakinlər:** Amin, inşallah. Allah ölkəmizi, xalqımızı, hər bir valideyni, hər bir uşağı qorusun, amin.

**Sakin:** Cənab Prezident, 1992-1993-cü illərdə biz buradan ağlayaraq, sürünərək getmişik. İndi buraya sevinc hissi ilə qayıtmışıq, Sizin sayənizdə qayıtdıq, Sizin rəhbərliyinizlə, Sizin "dəmir yumruğ"unuz sayəsində, ordumuzun gücü ilə. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Amin.

**Sakin:** Sizə çox təşəkkür edirik. O vaxt mən buradan tək çıxmışdım, bu gün isə bura 6 uşağımla gəlmişəm.

**Prezident İlham ƏLİYEV:** Allah saxlasın.

**Sakin:** Allah Sizə cansağlığı, uzun ömür versin, cənab Prezident.

***Ardı 3-cü səh.***

# Qarabağda növbəti Novruz təntənəsi

## Prezident İlham Əliyev Xocavəndin Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub






*Əvvəli 2-ci səh.*

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, doğrudan da böyük xoşbəxtlikdir. Artıq iki ildir ki, bu diyar işğalçılardan azad olunub, Xanoba kəndi 2023-cü ilin sentyabr ayında işğaldan azad edilmişdir və bundan sonra artıq bərpa işləri başlanmışdır, evlər yenidən tikildi-quruldu, bütün şərait yaradıldı. Yəni bu şanlı Zəfərimiz artıq neçə ildir bizim qürur mənbəyimizdir. Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir.

**Sakin:** Bəli, Allah Sizə cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Biz öz milli qürurumuzu bərpa etdik, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Silahlı Qüvvələrimiz həm 2020-ci ildə, həm 2023-cü ildə böyük qəhrəmanlıq göstərmişdir. Bunun nəticəsində biz bu gün bu torpaqlardayıq və biz bu torpaqların əsl sahibləriyik. Çünki Ermənistan buranı viran qoymuşdu. Yəni bütün kənd, qəsəbə, şəhər - hamısını dağıtmışdı. Burada bir neçə daxma tipli ev qalmışdı, amma indi baxın. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı nə gündə idi, yerlə yeksan etmişdilər. Xaricdən gələn erməniləri Laçında, Kəlbəcərdə qanunsuz məskunlaşdırmışdılar, ora da bərbad vəziyyətdə idi. Yəni hamısını biz yenidən qururuq. Cəmi 5-6 il ərzində Qarabağda və Şərqi Zəngəzurda 80 mindən çox insan yaşayır, çalışır, təhsil alır. Demək olar ki, hər ay, bəlkə də hər həftə keçmiş köçkünlər "Böyük qayıdış" proqramı çərçivəsində öz doğma diyarlarına qayıdırlar. Siz də artıq üç-dörd gündür ki, buradasınız. Yerləşmisiniz, hər şey yaxşıdır?

**Sakin:** Sağ olun, uşaqları da götürüb gəlmişik.

**Prezident İlham ƏLİYEV:** Neçə uşaqdır?

**Sakin:** Altı uşaqdır, üzr istəyirəm, yoldaşım qəhrəman anadır.

**Prezident İlham ƏLİYEV:** Allah saxlasın. Çox yaxşı. Allah köməyiniz olsun. Yaxşı nümunə göstərirsiniz. Gərək əhali artsın, mütləq.

**Sakin:** Allah köməyiniz olsun.

**Prezident İlham ƏLİYEV:** Düzdür, bu gün də artır, amma daha da sürətlə arta bilər.

**Sakin:** Biz Sizinlə fəxr edirik, dövlətimizlə fəxr edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Qadın sakin:** Allah köməyiniz olsun, Allah Sizi var eləsin, dövlətimizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Sizi bir daha təbrik edirəm. Artıq sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində xoşbəxt yaşayın. İndi qurub-yaratmaq dövrüdür. Ona görə kənddə də bütün şərait var, məşğulluqla bağlı da imkanlar var. Həm dövlət, həm də ki, özəl sahədə. Özəl əkin sahələri var, örüş sahələri, su var. Yəni işıq, qaz.

**Sakin:** Gözəl havası var.

**Prezident İlham ƏLİYEV:** Kurort havası var, kurortda yaşayırsınız. Layiqsiniz. İndi havanın fərqini görürsünüz.

**Qadın sakin:** Havası çox gözəldir, tərtəmiz havası var.








**Prezident İlham ƏLİYEV:** Hava, su insanın sağlamlığı üçün əsas şərtlərdən biridir. Siz işğal dövründə harada yaşamısınız?

**Qadın sakin:** Xocavənd rayonunun qəsəbəsində.

**Prezident İlham ƏLİYEV:** İndi biz bu doğma Qarabağ torpağında əbədi yaşayacağıq.

**Sakin:** Azərbaycanın hər tərəfi bizim torpağımızdır, amma buralar bizim dədəbaba yurdumuzdur. Ona görə də biz buralara gəlməli idik.

**Prezident İlham ƏLİYEV:** Düzdür, gəlməli idik və gəldik, qalib xalq kimi qayıtdıq. Sizi bir daha təbrik edirəm.

**Sakinlər:** Sağ olun, var olun.

**Sakin:** Cənab Prezident, Sizinlə şəkil çəkdirmək olar?

**Prezident İlham ƏLİYEV:** Əlbəttə olar, çəkdirək.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Siz harada yaşamısınız?

**Sakin:** Biz Füzuli rayonunun Yuxarı Veysəlli kəndində.

**Prezident İlham ƏLİYEV:** Yuxarı Veysəlli?

**Sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Hə, təmas xəttinə yaxın.

**Sakin:** Cənab Prezident, yalın o biri üzündədir.

**Prezident İlham ƏLİYEV:** Aşağı Veysəlli o, anklav idi.

**Sakin:** Bəli, neytral zona idi. Biz Aşağı Veysəllidən gəlib baxırdıq buralara, həsrətlə baxırdıq. Mənim buradan çıxanda yeddi yaşım var idi. Deyirdim ki, görəsən, biz bu dağlara qayıda biləcəyik? Sizin sayənizdə, şəhidlərimizin sayəsində gəldik, bu gün buradayıq.

Şəkil çəkdirilir.

**Prezident İlham ƏLİYEV:** Mehriban, sən də gəl, bizimlə şəkil çəkdir. Gəlin, gəlin.

**Sakinlər:** Sağ olun, çox sağ olun, Allah köməyiniz olsun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Qəhrəman ana ilə mən də çəkdirim.

**Prezident İlham ƏLİYEV:** Bəli, gəl. Nümunə olmalısınız.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Maşallah, Allah saxlasın.

**Sakinlər:** Çox sağ olun, var olasınız.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Neçə yaşı var ən böyüyünün?

**Qadın sakin:** 18. Universitetə hazırlaşır. 11-ci sinifdədir hələ.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Ən böyüyü, ən balacası?

**Qadın sakin:** Balacası, 4 yaşındadır.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Maşallah.

**Sakin:** Maşallah gününüz olsun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Neçəsi qız, neçəsi oğlandır?

**Sakin:** 4-ü qızdır, 2-si oğlan.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Allah saxlasın.

**Kişi sakin:** Çox sağ olun, Allah sizinkilərə dəyməsin, cansağlığı versin.

**Sakin:** Cənab Prezident, icazə olar şəkil çəkdirək?

**Prezident İlham ƏLİYEV:** Bəli, gəlin.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Neçə medalın var?

**Sakin:** Beş.

**Prezident İlham ƏLİYEV:** Beş?

**Sakin:** Allah Sizə cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, bir daha bayramınız mübarək.

# Gürcüstanın Baş naziri zati-aliləri cənab İrakli Kobaxidzeyə

Hörmətli cənab Baş nazir!

Bütün Gürcüstanın Katalikos-Patriarxı, zəmanəmizin görkəmli din xadimi II İlya həzrətlərinin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

II İlya həzrətləri bütün həyat və fəaliyyətini xalqına və bəşəriyyət naminə nəcib amallara həsr etmişdir. Qafqazda sülhün, əmin-amanlığın, insanlar arasında həmrəyliyin, dinlərarası anlaşma və dialoqun bərqərar olması yolunda fəaliyyəti ilə II İlya həzrətləri milli və dini mənsubiyyətindən asılı olmayaraq milyonlarla insanın qəlbində yer tapmış, dərin ehtiram və rəğbət qazanmışdır.

Azərbaycan ilə Gürcüstan arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmlənməsində II İlya həzrətlərinin böyük xidmətləri olmuşdur.

Bu ağır itkinin kədərini bölüşür, Sizə, bütün Gürcüstan xalqına, Gürcüstan Pravoslav Kilsəsinə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2026-cı il*

# M.Y.Zabelinin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Mixail Yuryeviç Zabelin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,18 mart 2026-cı il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan Parlamentinin Sədrinə başsağlığı verib

**Martın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova Bütün Gürcüstanın Katalikos-Patriarxı, görkəmli din xadimi II İlya həzrətlərinin vəfatı ilə əlaqədar Gürcüstan Parlamentinin Sədri Şalva Papuaşviliyə başsağlığı məktubu göndərib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda deyilir ki, II İlya həzrətlərinin bəşəriyyət naminə fəaliyyəti, Qafqazda sülhün, həmrəyliyin və dinlərarası dialoqun təşviqinə verdiyi töhfələr, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsində göstərdiyi böyük xidmətlər hər zaman ehtiramla xatırlanacaq.

Milli Məclisin Sədri məktubda gürcüstanlı həmkarına, parlamentin üzvlərinə, dost Gürcüstan xalqına öz adından və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri adından dərin hüznlə başsağlığı verib.

***"Azərbaycan"***

# Xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanına yola düşüb

**Xarici işlər naziri Ceyhun Bayramov martın 18-də Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərinə işgüzar səfərə yola düşüb.**




AZƏRTAC-a bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun bir sıra ölkələrin xarici işlər nazirlərinin regional təhlükəsizlik və sabitlik üzrə məşvərətçi iclasında iştirakı, habelə bəzi ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

# Əmək və sosial siyasət komitəsinin iclasında

**Martın 18-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Musa Quliyev bildirib ki, gündəliyə iki məsələ daxildir.**




Əvvəlcə komitə sədri gündəliyin birinci məsələsini - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, qanun layihəsi "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlıdır. Layihə narkotik asılılığı olan şəxslərin müəyyən edilmiş fəaliyyət məhdudiyyətli peşə və vəzifələrə qəbulunun qarşısını almaq, bu sahədə işəgötürənlərin məsuliyyətini artırmaq və nəzarət mexanizmlərini gücləndirmək məqsədilə hazırlanıb.

Məsələ barədə məlumat verən Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qeyd edib ki, layihə çərçivəsində işə qəbul zamanı məcburi tibbi rəyin təqdim olunması, əmək fəaliyyəti dövründə isə zərurət yarandıqda işçilərin icbari tibbi müayinədən keçirilməsi nəzərdə tutulur. Bununla belə, tibbi müayinə nəticəsində şəxsin narkoloji xəstə olduğu müəyyən edilərsə, bu hal əmək müqaviləsinə tərəflərin iradəsindən asılı olmayan əsas kimi xitam verilməsi üçün hüquqi əsas yaradır.

Ümumilikdə, dəyişikliklər ictimai sağlamlığın qorunmasına, əmək münasibətlərində təhlükəsizliyin təmininə və narkomanlığa qarşı mübarizənin effektivliyinin artırılmasına xidmət edəcək.

Sonra Musa Quliyev gündəliyin ikinci məsələsini - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Qeyd edilib ki, layihə qiymətləndirmə prosesinin obyektivliyini, şəffaflığını və hüquqi əsasları gücləndirmək, müasir qiymətləndirmə metodlarının tətbiqini təmin etmək və əmək mübahisələri riskini azaltmaq məqsədilə hazırlanıb.

Müzakirələrdə komitənin sədr müavini Elşad Musayev, komitənin üzvləri Vüqar Bayramov, Nigar Məmmədova, Soltan Məmmədov, Jalə Əliyeva, Sevinc Hüseynova, Əziz Ələkbərov və Göydəniz Qəhrəmanov çıxış edərək məsələlərlə bağlı fikirlərini səsləndiriblər, bəzi qeyd və təkliflərini irəli sürüblər.

Hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri təkliflər irəli sürüblər




**Azərbaycan Respublikasının baş prokuroru yanında fəaliyyət göstərən Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.**

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, iclası baş prokuror, Elmi-Məsləhət Şurasının sədri Kamran Əliyev açaraq ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri, hüquqi dövlət quruculuğunun möhkəmləndirilməsi, eləcə də qanunvericiliyin təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verib. O, çıxışında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin əhəmiyyətini də vurğulayıb.

Çıxış zamanı qeyd olunub ki, müstəqil Azərbaycan dövlətinin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub, Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkəmizdə sabitlik təmin olunub, Azərbaycanın inkişafı yeni mərhələyə qədəm qoyub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin beynəlxalq münasibətlər sistemində artan nüfuzu, həyata keçirilən genişmiqyaslı beynəlxalq əməkdaşlıq və regionda sabitlik və inkişafın təmin olunmasına yönəlmiş siyasətin əhəmiyyəti xüsusi vurğulanıb.

Eyni zamanda qeyd edilib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə sosial, humanitar və mədəni sahələrdə həyata keçirilən çoxşaxəli layihə və təşəbbüslər ölkəmizin inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına və beynəlxalq humanitar əməkdaşlığın genişlənməsinə mühüm töhfə verir.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq hüquq tətbiqi təcrübəsində aktual olan bir sıra məsələlər müzakirə edilib. Müzakirələr zamanı cinayət və inzibati qanunvericiliyin tətbiqi ilə bağlı məsələlər, istintaq hərəkətlərinin həyata keçirilməsi zamanı qarşıya çıxan çətinliklər, eləcə də məhkəmə nəzarətinin həyata keçirilməsi prosesində yaranan problemlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Belə ki, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsi ilə müəyyən edilən və yol-nəqliyyat hadisəsi yerindən qaçmadan bəhs edən norma, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev ifadənin yerində yoxlanılması istintaq hərəkətinin sübutetmə prosesində əhəmiyyəti və bu istintaq hərəkətinin yerinə yetirilməsi zamanı qarşıya çıxan çətinliklər, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində korrupsiya xarakterli, lakin cinayət tərkibi yaratmayan əməllər üçün dəqiq normalar və sanksiyaların təsbit edilməsinə dair məsələlər, Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Mahir Abbasov məhkəmə nəzarətinin həyata keçirilməsi prosesində ortaya çıxan problemlər barədə çıxış edib.

Qeyd olunanlardan əlavə, iclasda cinayət təqibi sahəsində mövcud problemlərin elmi və praktiki baxımdan araşdırılmasına həsr olunmuş "Yetkinlik yaşına çatmayan şəxslərlə bağlı aparılan cinayət təqibinin xüsusiyyətləri və mövcud problemlər" və "Cinayət təqibi üzrə icraatın dayandırılmasının aktual problemləri" adlı metodik vəsaitlər təqdim olunub, şura üzvləri tərəfindən həmin vəsaitlərin hüquqtətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi və hüquq-mühafizə orqanlarının fəaliyyətində praktiki əhəmiyyət daşıdığı vurğulanıb.

İclas çərçivəsində gündəlikdə duran digər aktual məsələlər üzrə də fikir mübadiləsi aparılıb, şura üzvləri tərəfindən bir sıra təkliflər irəli sürülüb.

İclasın sonunda Elmi-Məsləhət Şurasının sədri yekun nitqi ilə çıxış edərək aparılmış müzakirələrin hüquq sisteminin inkişafına və qanunvericiliyin təkmilləşdirilməsinə mühüm töhfə verəcəyini qeyd edib.

# İncəsənət məktəblərinin mövcud vəziyyəti ilə bağlı ictimai dinləmə keçirilib

**Martın 18-də Milli Məclisin Elm və təhsil komitəsinin təşkilatçılığı ilə "İncəsənət məktəblərinin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov dinləmənin keçirilməsi üçün göstərdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Anar İsgəndərov müzakirə olunan mövzunun aktuallığını vurğulayaraq, qeyd edib ki, parlamentdə artıq ikinci oxunuşdan keçmiş "Təhsil haqqında" qanuna təklif edilən dəyişikliklər də incəsənət təhsili sahəsində keyfiyyətin yüksəldilməsinə xidmət edir. Dəyişikliyə əsasən, Mədəniyyət Nazirliyinin sisteminə daxil olan uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və digər bu qəbildən olan dövlət təhsil müəssisələrində çalışan təhsilverənlərin nəzəri bilikləri və peşə yararlılığı attestasiya yolu ilə deyil, Elm və Təhsil Nazirliyində tətbiq olunan mexanizmə uyğun olaraq, sertifikasiya imtahanı vasitəsilə qiymətləndiriləcək. Onun sözlərinə görə, bu yanaşma qiymətləndirmə prosesində şəffaflığın və obyektivliyin təmin olunmasına, eyni zamanda təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə verəcək.

Komitə sədri bildirib ki, incəsənət məktəbləri milli-mədəni irsin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu təhsil ocaqları uşaqlarda erkən yaşlardan musiqi, rəssamlıq və xoreoqrafiya kimi sahələrə maraq aşılayır, onların yaradıcılıq potensialının formalaşmasına şərait yaradır. Qeyd olunub ki, ölkədə fəaliyyət göstərən bu tip məktəblər əsasən dövlət tərəfindən maliyyələşdirilir və Mədəniyyət Nazirliyinin sisteminə daxildir. Onların başlıca məqsədi istedadlı uşaqları üzə çıxarmaq, peşəkar incəsənət təhsili üçün baza formalaşdırmaq və milli incəsənət ənənələrini yaşatmaqdır.

Komitə sədri bildirib ki, son illərdə bir sıra məktəblərin maddi-texniki bazasının yenilənməsi, binaların təmiri və infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Şagirdlərin yerli və beynəlxalq müsabiqə və festivallarda iştirakı genişləndirilib. Bununla belə, uşaq musiqi, incəsənət, rəssamlıq və bu qəbildən olan digər təhsil müəssisələri ilə bağlı bəzi aktual məsələlər öz həllini gözləməkdədir. Anar İsgəndərov bu məktəblərin regionlarda infrastruktur təminatının qeyri-bərabərliyi, ixtisaslı pedaqoji kadr çatışmazlığı, həmçinin bu tip məktəblərdə tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması və rəqəmsal texnologiyaların tətbiqi kimi məsələlərə dair bəzi fikirlərini bölüşüb.

Sonra çıxış edən mədəniyyət naziri Adil Kərimli mədəniyyət sahəsində təhsilə, xüsusən də onun əsas sahəsi olan incəsənət təhsilinə dövlət siyasətində xüsusi yer verildiyini vurğulayıb. Nazir qeyd edib ki, son illərdə bu sahədə sistemli islahatlar həyata keçirilir. O, Azərbaycan Prezidentinin 2026-cı il 14 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasından bəhs edib. Bildirilib ki, konsepsiyanın qarşıya qoyduğu çağırışlara uyğun olaraq mədəniyyət sahəsində insan kapitalının inkişafı və kadr hazırlığının artırılması ilə bağlı tədbirlər həyata keçirilir. Bunlardan da biri incəsənət məktəblərinin fəaliyyətinin müasir çağırışlara uyğunlaşdırılmasıdır. Bu baxımdan, məktəblərin fəaliyyət keyfiyyətinin artırılması prioritet istiqamətlərdəndir.

Adil Kərimli diqqətə çatdırıb ki, hazırda incəsənət məktəblərində tədris proqramlarının yenilənməsi, müasir pedaqoji metodların tətbiqi və rəqəmsallaşma prosesinin genişləndirilməsi istiqamətində işlər aparılır. Nazir həmçinin müəllimlərin peşəkar inkişafının gücləndirilməsinin vacibliyini vurğulayaraq sertifikasiya mexanizminin tətbiqini müsbət qiymətləndirib.

Nazir incəsənət məktəblərinin maddi-texniki bazasının daha da gücləndirilməsi, kadr potensialının artırılması və tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində nəzərdə tutulan tədbirləri diqqətə çatdırıb.

Daha sonra mədəniyyət nazirinin müşaviri Cəsarət Valehov "Mədəniyyət Nazirliyi sistemindəki incəsənət məktəbləri: mövcud vəziyyət və perspektiv imkanlar" mövzusunda slaydlarla müşayiət olunan təqdimatla çıxış edib. O, Mədəniyyət Nazirliyi sistemindəki təhsil müəssisələrinin mövcud vəziyyəti, infrastrukturun yenilənməsi, məktəb şəbəkəsinin optimallaşdırılması, müəllimlərin peşəkarliq səviyyəsinin diaqnostikası kimi istiqamətlərlə bağlı statistik göstəriciləri diqqətə çatdırıb, perspektiv imkanlar, qarşıya qoyulan məqsədlər, görüləcək işlər haqqında da məlumat verib.

Mövzu ərafında aparılan müzakirələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu, Elm və təhsil komitəsinin üzvləri Bəxtiyar Əliyev, Elçin Mirzəbəyli, Şahin Seyidzadə, Ceyhun Məmmədov, Mehriban Vəliyeva, Pərvin Kərimzadə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova, Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin direktoru Könül Hüseynova, Qarabağ Universitetinin İncəsənət fakültəsinin dekanı Türkər Qasımzadə, Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaşzadə, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər, incəsənət sahəsində tənzimləmələr və attestasiya imtahanlarının keçirilməsi ilə bağlı fikirlərini səsləndiriblər.

Sonra mədəniyyət naziri Adil Kərimli tədbirdə deyilən fikirlərə münasibətini bildirib.

İctimai dinləmədə Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə, üzvləri Vasif Qafarov, Əziz Ələkbərov, Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov, Mədəniyyət nazirinin müavini Murad Hüseynov, Xalq artistləri Mənsum İbrahimov və Fidan Hacıyeva, Milli Məclis Aparatının, aidiyyəti dövlət qurumlarının nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri, ekspertlər və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Alena Əliyeva Novruz yarmarkasını ziyarət edib











**Martın 18-də Alena Əliyeva və Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Dənizkənarı Milli Park ərazisində təşkil olunmuş Novruz yarmarkasını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, qonaqlar yarmarkada təşkil olunmuş köşklərə baş çəkib, təamların dadına baxıblar. Azərbaycanda ilk inklüziv kafe olan "Kaşalata"nın köşkünün fəaliyyəti də diqqətdə saxlanılıb, kafenin əməkdaşlarına təbriklər ünvanlanıb, fəaliyyətlərində uğurlar arzulanıb. Qonaqlar yarmarka ərazisində təşkil olunan əyləncə məkanına da baş çəkib, hədiyyəli yarışda özlərini sınayıblar.

Alena Əliyeva ziyarətçilər və iştirakçılarla şəkillər çəkdirib, ona hədiyyələr təqdim olunub.

# Daş Salnamə Muzeyində "Çərçivədən kənar" adlı inklüziv incəsənət sərgisi açılıb





**Dünya Daun Sindromu Günü ərəfəsində Daş Salnamə Muzeyində "Çərçivədən kənar" adlı inklüziv incəsənət sərgisi açılıb.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Alena Əliyeva, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin deputatları, mədəniyyət və incəsənət nümayəndələri iştirak ediblər.

Tədbir "SOCAR Midstream Gas Operations" şirkətinin təşəbbüsü və dəstəyi, DADDI sosial sahibkarlıq müəssisəsinin təşkilatçılığı, BP, "PAŞA Holdinq", Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, YARAT Müasir İncəsənət Mərkəzi və Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin tərəfdaşlığı ilə baş tutub.

Tədbirdə Heydər Əliyev Fondunun nümayəndəsi Şamil Əzizov, SOCAR MGO-nun icraçı direktoru Polad Rüstəmov, "PAŞA Holdinq"in baş icraçı direktorunun müavini Səidə Baxşıyeva, BP AGT-nin xarici əlaqələr şöbəsinin rəhbəri Günəş Əliyeva, DADDI sosial sahibkarlıq müəssisəsinin təsisçisi Məhbubə Əliyeva çıxış ediblər.

Çıxışlar zamanı daun sindromlu şəxslərin cəmiyyətə inteqrasiyasının əhəmiyyəti, onların yaradıcılıq potensialının dəstəklənməsinin vacibliyi və bu istiqamətdə müxtəlif qurumlar arasında əməkdaşlığın rolu vurğulanıb.














Çıxışçılar qeyd ediblər ki, sərginin məqsədi inklüzivliyi və sosial həmrəyliyi təşviq etmək, daun sindromlu şəxslərin yaradıcılıq imkanlarını nümayiş etdirmək və onların potensialını daha geniş ictimaiyyətə təqdim etməkdir. Tədbir çərçivəsində daun sindromlu müəlliflərin rəsm əsərlərindən ibarət satış-sərgi təşkil olunub. Satış-sərgidən əldə olunan vəsait tam şəkildə müəlliflərə təqdim edilib.

Tədbirin bədii hissəsində inklüzivlik mövzusunda məhz bu tədbir üçün bəstələnmiş mahnı gənc ifaçı Əmrah Musayev və daun sindromlu şəxslərin birgə ifasında təqdim olunub. Bundan başqa, daun sindromlu iştirakçıların təqdimatında rəqs və musiqi nömrələri nümayiş etdirilib.

Sərgidə təqdim olunan əsərlər tədbir ərəfəsində YARAT Müasir İncəsənət Mərkəzində keçirilən ikigünlük yaradıcılıq master-klasları çərçivəsində hazırlanıb.

# "İmadəddin Nəsimi. Mən bu cahana sığmazam" kitabının təqdimatı olub



**Heydər Əliyev Fondunun dəstəyilə üç dildə hazırlanan "İmadəddin Nəsimi. Mən bu cahana sığmazam" kitabının martın 17-də Bakı Kitab Mərkəzində təqdimatı keçirilib.**



Layihənin rəhbəri Maya Dzirkvelişvilidir. Kitab, layihənin həmmüəllifi Taleh Ziyadovun təşəbbüsü ilə hazırlanıb. Nəşrin sponsorları Gürcüstanın "Wondernet Express Investment Group" şirkəti və Dimitri Abduşelişvilidir.

Üç dildə - Azərbaycan, ingilis və rus dillərində hazırlanan kitabın xüsusi bölməsində 47 il ömür sürmüş dahi şairin 47 seçilmiş əsərinə yer verilib. Bununla yanaşı, Nəsiminin həyat və şəxsiyyəti ilə bağlı aşkar edilmiş yeni faktlara, Nəsiminin türkdilli poetikası, o cümlədən Azərbaycan dilində poeziyanın inkişafına verdiyi töhfə, Nəsiminin təfəkkür düşüncələri və fəlsəfi baxışları, şairin istifadə etdiyi məxfi dil ("quş dili"), hürufilik cərəyanı, eləcə də Şirvanşahlar dövlətində elm və mədəniyyətin inkişafına dair məqalələr öz əksini tapıb. Kitabda həmçinin Nəsiminin yaradıcılığında ən çox rast gəlinən xüsusi termin və isimlər də göstərilib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində gürcüstanlı həmfikirləri adından çıxış edən Mamuka Murjikneli kitabın nəşrinin Azərbaycan xalqı və mədəniyyəti üçün böyük nailiyyət olduğunu qeyd edib: "Burada olmaq mənim üçün böyük şərəfdir. Bizim üçün böyük şans oldu ki, dostlarımız və həmkarlarımızla birlikdə işləməyə icazə aldıq".

Kitabın tərtibatında fəal iştirak etmiş, Nəsimi irsinin araşdırıcısı, yazıçı-dramaturq, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhminin sözlərinə görə, son illərdə Azərbaycanın bütün ədəbi-elmi təşkilatlarında klassik ədəbiyyatla bağlı çoxsaylı layihələr, tədbirlər həyata keçirilir ki, bu da bizim min illik tarixi olan ədəbi irsimizə böyük hörmət, diqqət və qayğının göstəricisidir: "Kitabın üç dildə nəşri bizi çox sevindirdi, həm də çox böyük çətinliklər yaratdı. Çünki Nəsimi irsi o qədər simvolik, o qədər rəmzlərlə, dərin fəlsəfi məsələlərlə zəngin olan xəzinədir ki, onu başqa dillərə çevirəndə necə alınacağı bizi çox düşündürdü. Ona görə məsləhətləşdik ki, həddən artıq qəliz məzmunlara getməyək ki, tərcüməçilər bu işin öhdəsindən gələ bilsinlər".

Filologiya üzrə fəlsəfə doktoru professor Səadət Şıxıyeva Nəsimi irsinə çox gözəl bir töhfənin hazırlandığını, ilk dəfə belə nəfis nəşrin şahidi olduğunu deyib: "Bu gün təqdim olunan kitab çox böyük əhəmiyyət daşıyır. İndiyə qədər Nəsimi haqqında olan kitablardan heç biri üç dildə, bu qədər böyük həcmdə, bu qədər nəfis şəkildə hazırlanmayıb. Həmin kitabın ərsəyə gəlməsində əziyyəti keçən hər kəsə, Heydər Əliyev Fonduna təşəkkür edirik".

Layihənin koordinatoru, tarixçi-alim Səbuhi Əhmədov Nəsimi irsinin təbliği ilə bağlı görülən işlərdən danışıb və bunların dahi şairin xatirəsinə layiqli bir töhfə olduğunu bildirib. Kitabın Nəsimi irsinə qayıtmaq üçün unikal bir fürsət olduğunu qeyd edən S.Əhmədov fikirlərinə belə davam edib: "Bu istiqamətdə işə başlayanda bir az tərəddüd etdik. Nəsiminin ədəbi irsi, fəlsəfi düşüncəsi o qədər zəngin idi ki, əvvəlki kitablardan fərqli bir iş ortaya çıxarmaq üçün çalışdıq. Bu layihə bizi Nəsiminin bioqrafiyası, xüsusilə Yaxın Şərqdə olan həyat və fəaliyyəti ilə bağlı yeni faktlarla tanış etdi. Kitabın tərtibatında gürcü dostlarımızın çox böyük rolu oldu. Ən yaxşı nəşriyyat, ən yaxşı dizayn qrupu, ən tanınmış tərcüməçilər bu işə cəlb olundu və ortaya gözəl bir iş çıxdı".

Tədbir bədii hissə ilə davam edib. Sonda kitablar qonaqlara paylanılıb.

# WUF13 Kiyevdə təqdim olunub

**Ukraynanın paytaxtı Kiyevdə Bakı şəhərində təşkil olunacaq 13-cü Ümumdünya Şəhər Forumu (WUF13) ilə bağlı xüsusi təqdimat keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və BMT-Habitat Ofisinin dəstəyi ilə Ukrayna Diplomatik Akademiyasında keçirilən tədbirdə çıxış edən səfir Seymur Mərdəliyev tədbirin əhəmiyyətindən danışıb.

"Bu mühüm forumu Bakıda keçirməklə, şəhərlərin gələcəyi ilə bağlı qlobal müzakirəyə töhfə verməyi və davamlı inkişafa sadiq olan ölkələr, qurumlar və maraqlı tərəflər arasında əməkdaşlığı gücləndirməyi hədəfləyirik", - deyə səfir əlavə edib.

S.Mərdəliyev bildirib ki, Azərbaycan gələcək nəsillərin ehtiyaclarını ödəyən şəhərlər formalaşdırmağa çalışır. Xüsusilə, Azərbaycanın azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində "ağıllı şəhər"lər və "ağıllı kənd"lərin inkişafı kimi iddialı təşəbbüslər təşviq edilir.

Sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparatı rəhbərinin və Ümumdünya Şəhər Forumunun (WUF13) Milli Koordinatorunun müavini Gülşən Rzayeva onlayn təqdimatla çıxış edib. Bildirib ki, WUF13-ə evsahibliyi etməklə Azərbaycan mənzil və şəhər dayanıqlılığı məsələlərini ən yüksək siyasi səviyyədə mövqeləndirməyə, müxtəlif milli kontekstlərə cavab verən praktik və miqyaslana bilən həlləri təşviq etməyə çalışır.

Ukraynalı deputatlar Volodimir Kreydenko və Yelena Şulyak WUF13 tədbirinin dünya şəhərsalma probleminin həllinə verəcəyi töhfədən danışıblar.

Tədbir panel iclasla davam edib. Ukraynada şəhərsalma, dağılmış evlərin bərpası, evlərin çatışmazlığı, onların kommunikasiya uyğunluğu barədə fikir mübadiləsi aparılıb.

# KOBİA-da vətəndaşların müraciətləri dinlənilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) vətəndaşlarla növbəti görüş keçirilib.**

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, görüş zamanı sahibkarların biznes fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, ehtiyacları olan dəstək və qarşılaşdıqları məsələlərin həlli ilə bağlı müzakirələr aparılıb.

Həmçinin sahibkarlara dövlət dəstəyi mexanizmləri barədə məlumat verilib. Qeyd olunub ki, biznesin qurulması və inkişafına dair müraciətlər üzrə zəruri dəstəyin göstərilməsi üçün tədbirlər görüləcək. Sahibkarların araşdırma tələb edən müraciətlərinin həlli üzrə isə agentliyin səlahiyyətləri çərçivəsində müvafiq qurumlarla birgə tədbirlər görüləcək.

# Qabaqcıl urbanizasiya modellərinə əsaslanan quruculuq



**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin möhkəm təməllər üzərində qurub yaratdığı müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə davamlı və dayanıqlı tərəqqi yolunda inamla addımlayaraq qüdrətli və qalib dövlətə çevrilib. Sabitliyin və əmin-amanlığın ən yüksək səviyyədə təmin edildiyi Azərbaycan beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi böyük nüfuz qazanıb.**

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında bildirib ki, ölkəmizin milli maraqlarına əsaslanan məqsədyönlü və qətiyyətli siyasət tarixi qələbələrimizin əldə olunmasına yol açıb: "2020-ci il 27 sentyabr tarixində torpaqlarımızın azadlığı uğrunda başlayan Vətən müharibəsi parlaq Zəfərlə yekunlaşdı. Prezident-xalq-ordu birliyinin təcəssümü olan 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın müdrik və qətiyyətli sərkərdəliyi, rəşadətli ordumuzun nümayiş etdirdiyi yüksək peşəkarlıq və böyük şücaət əzəli torpaqlarımızın işğaldan azad edilməsini, tarixi ədalətin bərqərar olmasını təmin etdi. 2023-cü ildə bir gün davam edən antiterror tədbirləri ilə ölkəmizdə separatizmin kökü kəsildi, dövlət suverenliyimiz tam bərpa edildi".

Ş.İsmayılov qeyd edib ki, inkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycan bu gün tarixin ən nəhəng bərpa-quruculuq işlərini də uğurla icra edir. Vətən müharibəsindən dərhal sonra azad edilmiş torpaqlarımızda genişmiqyaslı quruculuq və bərpa prosesinə start verilib: "Təbii ki, bu mərhələdə prioritet istiqamət Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın təhlükəsiz və ləyaqətli şəkildə öz yurdlarına qayıdışının təmin edilməsidir. Ötən beş ildən çox müddət ərzində qüdrətli Azərbaycan dövləti "Böyük qayıdış" proqramının uğurlu icrası istiqamətində mühüm addımlar atır. Otuz il Vətən həsrəti ilə yaşayan keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı istiqamətində sistemli iş həyata keçirilir, müasir infrastruktura malik şəhər, qəsəbə və kəndlər inşa olunur. Azərbaycan Respublikasının Prezidentinin 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə yaradılan Əlaqələndirmə Qərargahı işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli istiqamətində səmərəli fəaliyyət həyata keçirir".

Komitə sədri vurğulayıb ki, Qarabağda və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə məsələlərə kompleks yanaşma tətbiq olunmaqla, iqtisadiyyatın ayrı-ayrı sahələri inkişaf etdirilir, eləcə də kənd təsərrüfatı, sənaye müəssisələrinin yaradılması, sosial, ekoloji, şəhərsalma, nəqliyyat, mədəniyyət və digər mühüm istiqamətlərdə önəmli layihələr uğurla icra olunur. İşğal dövründə tamamilə dağıdılmış şəhər və kəndlər yeni inkişaf modelinə uyğun olaraq müasir urbanizasiya prinsipləri əsasında qurulur. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi bu bölgənin ölkəmizin ən müasir və innovativ regionlarından birinə çevrilməsinə zəmin yaradır.

Ş.İsmayılov deyib ki, tarixi torpaqlarımızda həyat yenidən canlanır, yeni yaşayış məntəqələrinə köç edən sakinlər doğma yurdlarında firavan və təhlükəsiz ömür sürürlər: "Bu gün digər milli bayramlarımız kimi, Novruz artıq 6-cı ildir doğma torpaqlarımızda da qeyd olunur, bayram tonqalları qalanır. Beləliklə, öz gücü hesabına tarixi ədaləti bərpa edən qüdrətli Azərbaycan dövləti öz imkanları hesabına keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışını da uğurla təmin edir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Orta dəhlizin strateji əhəmiyyəti artır

**Rusiya və Ukrayna arasında müharibə ilə əlaqədar Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) əhəmiyyəti son illərdə daha da artıb. Təhlükəsizlik şəraiti, sərfəli qiymətlər isə dəhlizin cəlbediciliyini daha da yüksəldib.**





Avropa ilə Asiyanı birləşdirən koridor Çin-Qazaxıstan sərhədindən başlayaraq, Mərkəzi Asiya ölkələri və Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu gün Orta dəhliz həmçinin ortaq maraqları olan ölkələri də bir araya gətirir. Eyni zamanda Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əlaqələrin inkişafına da stimul verməklə, ikitərəfli ticarət əlaqələrini gücləndirir.

Avropa və Asiya arasında ən qısa və rahat yol hesab edilən Orta dəhlizin əhəmiyyəti İranda baş verən son hadisələr fonunda yenidən gündəmdədir. Baş verən münaqişələr digər nəqliyyat dəhlizlərində vəziyyəti çətinləşdirsə də, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu yüklərin mənzilbaşına təhlükəsiz şəkildə çatdırılmasına imkan verir.

Ötən il "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes-Forumunun iştirakçılarına müraciətində bu marşrutun əhəmiyyəti barədə danışan Prezident İlham Əliyev qeyd edib ki, Orta dəhliz çox geniş coğrafiyanı birləşdirən strateji layihədir: "Bu dəhliz Avropanı Xəzər dənizi vasitəsilə Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut, yüklərin Asiyadan Avropaya və əks istiqamətdə çatdırılmasının ən qısa və optimal yoludur. Azərbaycanın əlverişli coğrafi mövqeyi - iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir".

Dövlət başçısının da qeyd etdiyi kimi, Azərbaycan Orta dəhlizin inkişafına töhfə verən əsas ölkələrdən biridir. Azərbaycanın prinsipial mövqeyi bu marşrutun inkişafında mühüm rol oynayıb. Respublikada bu marşrutlarla bağlı mühüm işlər görülüb, Ələt limanına, dəmir yoluna və digər vacib insfrastrukturlara böyük sərmayələr yatırılıb, rəqəmsallaşma istiqamətində vacib addımlar atılıb.

Görülən işlərin nəticəsində bu marşrutla daşınan yüklərin həcmi ildən-ilə artmaqdadır. Belə ki, son illərdə Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi təxminən 90 faiz artıb. 2030-cu ilədək isə yükdaşıma qabiliyyətinin daha da artacağı, yüklərin keçid müddətinin isə azalacağı gözlənilir.

Geosiyasi təlatümlər dövründə Avropanın etibarlı enerji tərəfdaşı olan Azərbaycana marağı bu dəhliz fonunda daha da artıb. Son hadisələr bunu bir daha təsdiqləyir. İranın Hörmüz boğazını bağlaması Qərbin diqqətini yenidən Orta dəhlizə yönəldib. Avropa ölkələri də anlayır ki, Azərbaycanla qarşılıqlı etimada əsaslanan əlaqələr onun enerji böhranından çıxışında mühüm rol oynamaqla yanaşı, bu dəhliz vasitəsilə iqtisadi və logistika imkanlarını da genişləndirir.

İqtisadçı ekspert Eldəniz Əmirov da qəzetimizə açıqlamasında bildirib ki, son zamanlar baş verən geosiyasi proseslər fonunda Orta dəhliz öz aktuallığını daha da artırıb: "Çindən Avropaya yüklər Körfəz ölkələrindən keçərək daşınırdı, bir hissəsi isə Orta dəhliz vasitəsilə həyata keçirilirdi. Amma hazırda İrandakı vəziyyətlə bağlı risklər Orta dəhlizin əhəmiyyətini artırıb".

E.Əmirov vurğulayıb ki, Hindistan, Pakistan üzərindən daşınmalı olan yüklər də trayektoriya cızaraq Orta dəhliz üzərindən Qərbə daşına bilər.

Ekspert həmçinin bildirib ki, Yaxın Şərqdə baş verənlər bu regiondan investisiyanın qaçmasına səbəb ola bilər: "Bu isə alternativ region olan Mərkəzi Asiya respublikalarında, xüsusən Qazaxıstan və Çində iqtisadi aktivliyin və xarici investisiyaların həcminin daha da artmasına gətirib çıxaracaq. Orta və uzunmüddətli dövrdə isə belə investisiyalar Orta dəhlizin imkanlarından istifadə etmək istəyən təsərrüfat subyektlərinin sayını da çoxaldacaq. Bu isə Orta dəhlizin Azərbaycan üçün gəlirliliyini, Şərq və Qərb arasında olan əhəmiyyətini daha da artıracaq.

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

*Vayra VİKE-FREYBERQA:*

# "Bakı forumu Azərbaycan Prezidentinin qlobal məsələlərin həllinə verdiyi böyük töhfədir"

**Ötən həftə ölkəmizdə baş verən əlamətdar hadisələrdən biri XIII Qlobal Bakı Forumu oldu. Bu forum artıq 13-cü dəfədir ki, keçirilir və hər dəfə də gündəmə uyğun məsələlərin müzakirəsi, onların aktuallığı ilə seçilir. Əlbəttə ki, günümüzün narahatlıq doğurduğu qlobal problemləri barəsində də fikir mübadiləsinin aparılması, onların aradan qaldırılması yollarının axtarılması forumun gündəliyində duran başlıca məsələlərdən idi.**




AZƏRTAC xəbər verir ki, forumda iştirak edən Belçikanın keçmiş baş naziri İv Lötermin dediyi kimi, "Beynəlxalq platformalar çoxdur. Lakin Qlobal Bakı Forumu hər il keçirilərək dünya gündəmini nəzarətdə saxlayır və forumun adından da göründüyü kimi, qlobal məsələləri müzakirə edir, yeni ideya və təkliflər irəli sürülür ki, bunlar da gələcəyin dayanıqlı inkişafını təmin etmək üçün çox səmərəlidir".

Forumda müzakirə olunan mövzulara diqqət yetirsək, Azərbaycan dövlətinin hansı qlobal problemlərin həll olunmasında rol oynamağa çalışdığını görərik. "Qlobal təhlükəsizlik və güc balansı: Beynəlxalq hüquqa hörmət, yeni məsələlər, yeni çətinliklər", "Orta dəhliz və Avrasiya Əlaqə Qapısı 2030 Gündəliyinin sürətləndirilməsi: İnklüziv artım və dayanıqlı əlaqəlilik", "Afrika: bu gün və sabah", "Çin və Qlobal İdarəetmə Təşəbbüsü", "COP-u yaşatmaq uğrunda mübarizə" və digər mövzular bu gün nəinki dünya ictimaiyyətini, hər bir insanı, hər bir cəmiyyəti düşündürür.

Azərbaycan ərazisinə görə kiçik dövlət olmasına baxmayaraq, böyük məsələlərin həlli barədə düşünür, onların neqativ nəticələrinin aradan qaldırılması üçün platforma yaradıb və nüfuzlu şəxslərin bu platformada fikir söyləmələrinə imkan verib.

Latviyanın keçmiş prezidenti Vayra Vike-Freyberqa forumda çıxışında bildirib ki, bu platformanın yaradılması Azərbaycan Prezidentinin qlobal məsələlərin həllinə verdiyi böyük töhfədir: "Buradakı nüfuzlu şəxslər illərlə dövlət idarəçiliyində olub, qlobal problemin mahiyyətini və yaranma səbəblərini dərindən bilirlər. Onların fikir və təklifləri hazırkı liderlər üçün çox gərəkli ola bilər".




# Yaxın Şərqdə müharibə davam edərsə...

## Hörmüzü də Orta dəhliz əvəzləyə bilər

**ABŞ və İsrailin İranla müharibəsi dünya iqtisadiyyatına öz mənfi təsirini göstərməkdə davam edir. İlk növbədə neftin qiyməti sürətlə bahalaşır ki, bu da mütəxəssislərin qeyd etdiyi kimi, dünyada yeni bir inflyasiya dalğasının başlanmasına səbəb ola bilər.**

Bu müharibənin fəsadlarının digərləri ilə müqayisədə daha böyük olmasının səbəbi dünya tədarük zəncirində yaranan qırılmalarla bağlıdır. Məlumdur ki, dünya neft təchizatının 20 faizi müharibənin getdiyi Hörmüz boğazı vasitəsilə həyata keçirilir. Davam edən müharibə səbəbindən isə boğazdan tankerlərin keçməsi risk altındadır.

ABŞ Prezidenti Donald Tramp Hörmüz boğazının bağlanmasının İrana baha başa gələcəyi barədə xəbərdarlıq etsə də, buna cavab olaraq İran tərəfi bildirir ki, boğaz yalnız ABŞ və İsrail gəmiləri üçün bağlıdır. İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai açıqlayıb ki, ölkəsi Hörmüz boğazını bağlamayıb, sadəcə, İran silahlı qüvvələri boğazdan keçən gəmilərin hərəkətinə nəzarət edir. İran rəsmisi həmçinin xüsusi olaraq vurğulayıb ki, ABŞ ilə İsrail gəmilərinin hərəkətinin məhdudlaşdırılmasının səbəbi ölkələrinə qarşı olan təcavüzlə əlaqədardır. Əsas məqsədləri isə bu iki ölkə ilə yanaşı, onun müttəfiqlərinin Hörmüz boğazı vasitəsilə İrana hücumunun qarşısını almaqdır. Bu bəyanata baxmayaraq, müxtəlif ölkələrin bayraqları altında üzən mülki donanmaya məxsus tanker və quru yük gəmiləri də boğazdan keçməyə risk etmirlər. Belə hal isə dünya təchizat zəncirinə böyük zərbə vurur. O səbəbdən əgər müharibə uzanarsa, onun törətdiyi iqtisadi fəsadların daha böyük olacağı heç kəsdə şübhə doğurmur.

Hörmüz boğazının bağlanmasından ən çox təsirlənən Avropa ölkələridir. Əvvəllər onlar neft və qaza olan tələbatlarını Rusiyadan tədarük edirdilər. Rusiya-Ukrayna müharibəsi səbəbindən bu tədarük zənciri qırıldı. Bundan sonra Avropa neftə olan tələbatını Yaxın Şərq, əsasən də körfəz ölkələri hesabına ödəyirdi. İndi, qeyd etdiyimiz kimi, Hörmüz də demək olar bağlanıb. Odur ki, "qoca qitə"dən Hörmüz boğazının bağlanmasına müxtəlif səviyyələrdən münasibətlər əks etdirən fikirlər eşidilir. Avropa İttifaqının Xarici siyasət məsələləri üzrə ali nümayəndəsi Kaya Kallas bildirib ki, Avropa İttifaqı yaxın günlərdə Hörmüz boğazının açıq saxlanması yollarını müzakirə etməyə hazırlaşır. "Hörmüz boğazının açıq qalması bizim maraqlarımıza uyğundur və ona görə də bu məsələdə nə edə biləcəyimizi müzakirə edirik", - deyə Aİ rəsmisi jurnalistlərə bildirib.

Bu ərəfədə xəbər verildiyi kimi, ABŞ Prezidenti Donald Tramp Britaniya və NATO-ya üzv ölkələrdən İrana qarşı hərbi əməliyyatlarda dəstək istəmişdir. Onun bu çağırışına məhəl qoyulmamasına münasibət bildirən ABŞ lideri bu faktı unutmayacağını deyərək NATO-ya xəbərdarlıq etmişdir. Bu yerdə qeyd edək ki, Avropa ölkələrinin Hörmüz boğazına hərbi gəmilərini göndərməməkdə əsaslı səbəbləri var - onlar bunu edərlərsə, bayraqları altında üzən tankerlər İran tərəfindən hərbi hədəf hesab olunacaq.

Sözügedən müharibə Hörmüz boğazında böyük risklər yaratdığı üçün sığorta şirkətləri sığorta dəyərini də artırıblar. Hazırda 100 milyon dollarlıq neft tankerinin sığortalanması üçün təxminən 5 milyon dollar vəsait ödənilməlidir. Belə artım isə gəmiçilik şirkətlərinə sərf etmir. Necə deyərlər, heç kim risk etmək istəmir və bu da öz növbəsində dünya neft təchizatında ciddi qırılmalara və bahalaşamalara səbəb olur. Mütəxəssislər isə deyirlər ki, bunun qarşısını almaq üçün anbarlarda yığılmış neft ehtiyatlarından istifadə etmək lazımdır. Ancaq müharibə uzanarsa, bu, yalnız müvəqqəti tədbir ola bilər.

"Hörmüz boğazı qlobal konteyner ticarəti üçün əsas dəniz "dar boğazları"ndan biridir. Onun bağlanması halında Asiya, Yaxın Şərq və Avropa arasında konteyner tədarük zəncirləri gecikmələr və logistika xərclərinin artması ilə üzləşə bilər. Belə bir vəziyyətdə alternativ multimodal marşrutların əhəmiyyəti artır. Onlardan biri Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən Orta dəhlizdir". Bunu isə "Azərbaycan Dəmir Yolları" QSC-nin Marketinq və tarif siyasəti departamentinin marketinq şöbəsinin müdir müavini Ziya Məmmədov bildirib. Yəqin ki, əlavə şərhə ehtiyac yoxdur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

*Özbəkistanın rəsmi UZA Agentliyi:*

# Daşkənd və Bakı regional iqtisadi əməkdaşlığın yeni modelini qurur

**Daşkənd və Bakı regional əməkdaşlığın yeni modelini qurur. AZƏRTAC xəbər verir ki, bu fikir Özbəkistanın rəsmi UZA İnformasiya Agentliyinin analitik məqaləsində yer alıb.**



Müəllif Əzizə Alimova qeyd edib ki, Mərkəzi Asiya Avrasiyada ən dinamik investisiya platformalarından biri kimi ortaya çıxır. Keçən il regionda qarşılıqlı ticarət 10,7 milyard dollara çatıb, ümumi investisiya isə 17 faiz artıb. Kapitalın qlobal yenidən bölüşdürülməsi fonunda davamlı artım tempi, inkişaf etmiş logistika və proqnozlaşdırıla bilən investisiya siyasəti olan regionlara maraq artır.

Qeyd olunub ki, regionun beynəlxalq rolunun güclənməsi fonunda "Mərkəzi Asiya Plus" formatı daha sistemli hala gəlir və region ölkələri əsas beynəlxalq forumlarda getdikcə daha çox əlaqələndirilmiş mövqe ifadə edirlər. Azərbaycanın potensial üzvlüyünün qlobal səviyyədə regional dialoqa əlavə çəki verəcəyi gözlənilir.

Müəllif yazır ki, bu fonda Özbəkistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Tarixi və mədəni yaxınlıq, coğrafi mövqe tədricən konkret iqtisadi layihələrə və infrastruktur təşəbbüslərinə çevrilir. İki dost ölkənin əməkdaşlığı aktiv siyasi dialoq, artan ticarət dövriyyəsi və investisiya axınları ilə xarakterizə olunur. Əsas hərəkətverici qüvvələrə birbaşa xarici investisiyalar, sənaye əməkdaşlığı və birgə infrastruktur layihələrinin həyata keçirilməsi daxildir. Gələcəkdə iki ölkənin strateji tərəfdaşlığı ticarətin genişləndirilməsinə, iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə və turizmin inkişafına yönələcək. 2025-ci ildə qarşılıqlı ticarət dövriyyəsini 2030-cu ilə qədər 1 milyard dollara çatdırmağı hədəfləyən ticarət və sənaye əməkdaşlığının inkişaf etdirilməsi proqramları imzalanıb.

Məqalədə diqqətə çatdırılır ki, uzunmüddətli böyümə potensialına malik layihələrə diqqət yetirən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti (AUIC) ikitərəfli əməkdaşlığın inkişafında əsas rol oynayır. Şirkət iki ölkə daxilində təşəbbüslərə diqqət yetirsə də, hər iki tərəfin strateji maraqlarına uyğun gəlməsi şərti ilə üçüncü ölkələrlə tərəfdaşlığa açıq qalır.

Agentliyin materialında vurğulanır: "Tarixən Özbəkistan ilə Azərbaycan arasında əlaqələr ticarət və mədəni mübadilə yolu ilə formalaşıb. Bu gün isə münasibətlər iqtisadi inteqrasiya, nəqliyyat əlaqəsi və genişlənmiş investisiya əməkdaşlığı vasitəsilə möhkəmlənir. İşgüzar əlaqələrin inkişafı, birgə müəssisələrin yaradılması və yeni bazar yerlərinin araşdırılması investisiya axınlarının davamlı artımı üçün sabit təməl yaradır. Beləliklə, Özbəkistan və Azərbaycan investisiya mühitinin, infrastrukturun və müasir texnologiyaların inkişafına əsaslanan regional əməkdaşlıq modeli qururlar.

**Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın 11 mart 2026-cı ildə Bakıya səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdükdən sonra verilən birgə mətbuat bəyanatında yer almış məsələlər arasında üç mühüm məqam xüsusilə diqqət çəkdi: birincisi, prezidentlər Azərbaycan-Aİ tərəfdaşlığının strateji xarakterə malik olduğunu və onun əhəmiyyətini vurğuladılar. Bununla 2022-ci ilin iyununda Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri zamanı enerji sahəsində yaradılmış strateji tərəfdaşlığın digər əməkdaşlıq sahələrinə də şamil edilməsi ilə ikitərəfli münasibətlərin strateji xarakterə malik olması ali səviyyədə təsdiqləndi.**




# Prezident İlham Əliyevin sülh diplomatiyası: Aİ və ABŞ ilə strateji tərəfdaşlıq

Digər mühüm bir məqam Birgə Bəyanatın 8-ci bəndində əksini tapmış Aİ-nin "Qlobal Qapı" (Global Gateway) təşəbbüsünə Azərbaycanla bağlı layihələrin daxil edilməsidir: "Avropa İttifaqı "Qlobal Qapı" çərçivəsində daşımalar, digər müvafiq mexanizmlər, o cümlədən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında dəmir yolunun müasirləşdirilməsinə dəstək, həmçinin TRIPP-ın icrası üzrə davam edən səylərlə bağlı Azərbaycanla əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib".

Üçüncü mühüm məqam münasibətlərin institutlaşdırılması və daha uzun müddət üçün perspektivinin təmini ilə bağlı əldə edilən razılaşma oldu. "Qlobal Qapı" təşəbbüsü çərçivəsində Azərbaycan-Aİ iqtisadi əməkdaşlığını və sərmayələrini gücləndirmək üçün İqtisadi Əməkdaşlıq üzrə Yüksəksəviyyəli İşçi Qrupunun yaradılması bu sahədə uzunmüddətli əməkdaşlığın hədəfləndiyini təsdiqləyir.

### "Qlobal Qapı" təşəbbüsünün mahiyyəti və Azərbaycanla bağlı layihələr

"Qlobal Qapı" Aİ-nin strateji investisiya tərəfdaşlıqları vasitəsilə beynəlxalq fəaliyyətini gücləndirməyə yönəlmiş əsas təşəbbüsüdür. Bu, Aİ-nin qlobal miqyasda təhlükəsiz və keyfiyyətli bağlantı və infrastruktur qurmaq üçün hazırladığı strateji plandır. Bu planın iki əsas məqsədini fərqləndirmək olar: Aİ-nin strateji maraqlarını, strateji muxtariyyətini və təhlükəsizliyini gücləndirmək, eyni zamanda tərəfdaş ölkələrdə davamlı inkişaf və iqtisadi artımı təşviq edən qarşılıqlı faydalı tərəfdaşlıqlar qurmaq. 2021-ci ildə elan olunan bu strategiya Aİ-ni 2027-ci ilə qədər 300 milyard avro investisiyanı səfərbər etməyə planlaşdırırdı. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen tərəfindən Global Gateway Forumu zamanı verilən son açıqlamalara görə, Aİ artıq ilkin məqsədini keçərək 2025-ci ilin oktyabrına qədər 306 milyard avro investisiyanı səfərbər edib. Strategiyanın hazırda 2027-ci ilə qədər olan dövrdə 400 milyard avroya qədər genişləndirilməsi üzərində iş aparılır.

Strategiyanın əsas mahiyyəti xarici investisiyaları, inkişaf əməkdaşlığını və iqtisadi diplomatiyanı vahid strateji çərçivədə birləşdirməkdir. Bu yanaşma Aİ-nin xarici siyasətində daha geniş bir dəyişiklikdən xəbər verir - yəni sırf inkişafyönümlü yanaşmadan investisiya alətlərinin daha geostrateji istifadəsinə keçid. Bu kontekstdə Global Gateway yalnız inkişaf aləti deyil, həm də geoiqtisadi strategiya kimi reallaşdırılır.

Azərbaycanın Naxçıvan bölgəsində dəmir yolu şəbəkəsinin müasirləşdirilməsinə dəstəyin, Tramp marşrutunun icrasına yönəlmiş səylərlə bağlı ölkəmizlə əməkdaşlığa sadiqliyin elan olunması da məhz bu strategiyada təsbit olunmuş nəqliyyat və tranzitlə bağlı qlobal hədəflərdən qaynaqlanır. Bu mexanizmlərlə yanaşı, ümumilikdə "Qlobal Qapı" çərçivəsində daşımaların prioritetləşdirilməsi məhz qarşılıqlı fayda ("win-win") formulasını təsdiqləyir. İlk dəfə olaraq, faktiki olaraq Zəngəzur dəhlizi ilə bağlı məsələnin, TRİPP marşrutunun Azərbaycan, ümumilikdə Cənubi Qafqaz və Aİ arasında mühüm layihə kimi gündəmə gətirilməsi əməkdaşlığın dərinləşdirilməsi istiqamətində atılan ciddi addımdır.

Zəngəzur dəhlizinin (TRIPP) reallaşdırılması həmçinin türk dövlətlərinin iqtisadi, ticarət əlaqələrinin intensivləşdirilməsi, nəqliyyat-tranzit imkanlarının birləşdirilməsidir. Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışında deyib: "Əminəm ki, Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək".

### C6: yeni məşvərət platformasının beynəlxalq əhəmiyyəti və Aİ ilə əməkdaşlıq sahələri

2025-ci ilin aprelində Səmərqənddə keçirilən ilk Aİ-Mərkəzi Asiya sammitində Mərkəzi Asiya Global Gateway təşəbbüsünə daxil edildi və bu çərçivədə Brüssel tərəfindən 12 milyard avro həcmində investisiya paketi elan edildi. Sərmayə paketi bu sahələrdə əməkdaşlığı gücləndirməyi nəzərdə tutur: nəqliyyat əlaqələrinin inkişafı, kritik xammallar sahəsində əməkdaşlıq, rəqəmsal şəbəkələrin genişləndirilməsi, su, enerji və iqlim siyasətinin inteqrasiyası.

Ötən ilin noyabrında isə Aİ-Mərkəzi Asiya tərəfdaşlığının daha da gücləndirilməsinə və konkret nəticələrin əldə olunmasına yönəlik missiya məqsədilə Brüssel iki komissarını Özbəkistana ezam etdi. Səfər çərçivəsində nəqliyyat və logistika infrastrukturunun modernləşdirilməsi, məsuliyyətli kritik xammal tədarük zəncirlərinin qurulması, ticarət axınlarının yaxşılaşdırılması və ekoloji bərpa məsələləri əsas müzakirə predmeti olmuşdur. Səfərin diqqət mərkəzində Trans-Xəzər Nəqliyyat Dəhlizinin inkişafının yer alması Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə, Avropa və dəhliz boyunca yerləşən digər ölkələrdə yerli inkişafı, rifahı və sabitliyi artırmağı hədəfləyir. Bu nəqliyyat layihəsi Avropa ilə Mərkəzi Asiyanı Azərbaycandan keçməklə təxminən 15 gün ərzində birləşdirəcək nəqliyyat marşrutu kimi qiymətləndirilir. Layihə region ölkələri ilə yanaşı, Avropanın iqtisadi təhlükəsizliyinin gücləndirilməsinə də töhfə verir.

Azərbaycanın 2025-ci il noyabrın 16-da Daşkənd şəhərində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı hüququ alması tarixi və coğrafi faktorlar baxımından vahid olan geosiyasi məkanda qərarlaşan dövlətlərin fəaliyyətlərinin əlaqələndirilməsi üçün yeni bir platformanın yaradılması deməkdir. Həm də mədəni, dini, digər ortaq dəyərlərlə birləşən məkanda indi siyasi müstəvidə də fəaliyyətlərin əlaqələndirilməsi üçün yeni mexanizm formalaşdırılır. Yeni mexanizm münasibətlərin çoxtərəfli formatda perspektivdə institutlaşdırılması yolunda atılan ilk addımdır.

Həmçinin bu tərəfdaşlıq şanlı zəfərimizdən sonra beynəlxalq mövqeləri möhkəmlənən Azərbaycana, onun Lideri Prezident İlham Əliyevin yeni siyasi reallıqları əsk etdirən sülh və əməkdaşlıq gündəliyinə Mərkəzi Asiya dövlətlərinin verdiyi dəyərdir. Azərbaycanın yeni platformada təmsilçiliyini Özbəkistan Prezidenti "tarixi gün" və "Mərkəzi Asiya xalqlarının maraqlarına cavab verən strateji addım", Qazaxıstan Prezidenti "tarixi qərar", Qırğızıstan Prezidenti isə "yeni imkanların açılması" kimi dəyərləndirmişdir.

Bu qərar hazırkı mərhələdə çoxtərəfli əməkdaşlıq müstəvisində dönüş imkanları



yaradılması baxımından olduqca vacib əhəmiyyətə malikdir. Daşkənd razılaşması Azərbaycanın postmünaqişə dövrü xarici siyasət kursunda, çoxtərəfli diplomatik müstəvidə Prezident İlham Əliyevin strateji baxışlarına uyğun atılan növbəti uğurlu addımdır. Azərbaycan Prezidentinin Daşkənd görüşündə dediyi sözlərlə ifadə etsək, "Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur". Azərbaycanın yeni formata qoşulması mövcud siyasi, iqtisadi, enerji və nəqliyyat potensialından daha optimal formada və dinamik şəkildə istifadə imkanları yaradır.

Azərbaycan bu formata malik olduğu çox vacib resurslarla gəlir. Bunlar arasında Azərbaycanın yaratdığı yeni siyasi reallığın üstünlüklərini özündə birləşdirən və Cənubi Qafqaz regionunun coğrafiyasını aşan əməkdaşlıqda Mərkəzi Asiya dövlətləri ilə əlaqələri daha da intensivləşdirmək siyasəti yer alır.

Mərkəzi Asiya dövlətlərinin əlavə marşrut vasitəsilə təkcə Aİ üzvü olan dövlətlərə deyil, ümumilikdə Avropa və dünya bazarına çıxmasında və əks istiqamətdə mühüm strateji əhəmiyyətə malik Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi sayəsində yeni imkanlar açılacaq və münasibətlər daha da intensivləşəcəkdir. Bu mənada yeni məşvərət formatı Mərkəzi Asiya dövlətlərinin Cənubi Qafqaz regonuna, Qara dəniz hövzəsinə çıxışı, qardaş Türkiyə ilə münasibətləri daha da intensivləşdirmək baxımından, eləcə də Orta Şərqə yeni alternativ imkanlarla çıxışı üçün olduqca önəmlidir. Xəzər hövzəsinin qərbində yerləşən Azərbaycanın yeni formata qoşulması Xəzər hövzəsinin şərqinə, Mərkəzi Asiya məkanına çıxışı, həmçinin Çinlə əməkdaşlığımızın möhkəmləndirilməsi üçün olduqca vacibdir.

Azərbaycanda yaradılan infrastruktur, nəqliyyat və tranzit üçün inşa edilən avtomobil və dəmir yolları, neft, qaz, eləcə də "yaşıl enerji" sahəsində həyata keçirilən layihələr Azərbaycanı Mərkəzi Asiya dövlətləri üçün müxtəlif sahələrdə vacib və etibarlı tərəfdaşa çevirib. Məsələn, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara "yaşıl enerji"nin birgə ixracı üçün böyük perspektivlər açır. 2024-cü ilin noyabrında Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan "yaşıl enerji"nin inkişafı və ötürülməsi barədə Anlaşma Memorandumu imzaladılar. Gürcüstan, Bolqarıstan, Rumıniya və Macarıstanın da bu təşəbbüsə qoşulması "yaşıl enerji"nin Avropa bazarına çıxarılması üçün imkanlar yaratmaqdadır. Dünya Bankının bu layihənin icrasına ilkin mərhələdə 34 milyon dollar ayırması onun cəlbedici perspektivini təsdiqləyir.

"Rəqəmsal İpək yolu" layihəsinin tərkibi kimi Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi və onun Avropa bazarına uzanması yeni və müasir bir sahədə regionları əhatə edən uzunmüddətli əməkdaşlıq üçün imkanlar açır.

### Mərkəzi Asiya-ABŞ formatında əməkdaşlıq və Azərbaycanın tranzit ölkə kimi strateji əhəmiyyəti

2025-ci il noyabrın 7-də C5+1 formatının 10-cu ildönümünü qeyd etmək məqsədilə Vaşinqtonda səfərdə olan beş Mərkəzi Asiya ölkəsinin prezidentləri Zirvə görüşündən sonra İqtisadi sahədə niyyətə dair Birgə Bəyanat imzaladılar. Həmçinin ABŞ və hər bir dövlətlə ayrılıqda ikitərəfli məlumat arayışı imzalandı və orada ikitərəfli əməkdaşlığın ümumi konturları və faktlar yer aldı.

Amerikalı ekspertlər bu sənədləri, orada yer alan əməkdaşlıq perspektivlərini "C5+1 platformasının genişmiqyaslı çoxtərəfli diplomatiya platformasından iqtisadi sahəyə yönəlmiş formata" keçid kimi dəyərləndirdi. Regiondakı bəzi ölkələr üçün daha çox ikitərəfli əməkdaşlığa meyillənən bir format çoxşaxəli əməkdaşlıq üçün imkanlar yaradır.

İqtisadi sahədə niyyətə dair Birgə Bəyanat üç strateji vacib sahədə əməkdaşlığı təsbit edir. Bu sahələrdən biri kimi "Trans-Xəzər Ticarət Marşrutu və Bağlantı" başlığı ilə tranzit məsələsinin sənədə daxil edilməsi Azərbaycanın malik olduğu sabit tranzit funksiyasının dəyərləndirilməsidir. Bu sənəddə Trans-Xəzər marşrutunun və TRIPP marşrutunun əhəmiyyətinin vurğulanması ABŞ hökumətinin regiona yönəlik uzunmüddətli strateji maraqlarından xəbər verir. Bu marağı və əməkdaşlıq strategiyasını C5+1 liderləri belə ifadə etdilər: "C5+1 ölkələrinin və dünyanın mənafeyi naminə yükün, məlumatın və enerjinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə Trans-Xəzər Ticarət Marşrutunun (başqa adı ilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) potensialını tam şəkildə inkişaf etdirməklə və onu Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP) ilə əlaqələndirməklə təchizat zəncirinin bağlantısını və dayanıqlılığını gücləndirmək".

Birgə Bəyanata əsasən, Orta dəhlizin və onun vacib seqmenti Zəngəzur dəhlizi/TRIPP marşrutunun uzunmüddətli və dayanıqlı fəaliyyətinin əsasını təşkil edən kritik vacib mineralların istehsalı və tədarükü sahəsində əməkdaşlığa dair dialoq təsis olunur. Bu, sənədin Ticarət, İnvestisiyalar və Kritik Minerallar bölməsində yer almışdır.

Həmçinin Birgə Bəyanata əsasən, C5+1 formatında ticarət və investisiyalar sahəsində əməkdaşlığın intensivləşdirilməsi niyyəti ilə vacib nadir metalların işlənməsi və Mərkəzi Asiyadan ABŞ-yə ixracı sahəsində əməkdaşlığın sistemləşdirilməsi üçün "Kritik Minerallar Dialoqu" təsis olunur: "C5+1 çərçivəsində Kritik Minerallar Dialoqu üzrə əməkdaşlığı davam etdirmək, geoloji kəşfiyyat, mədənçıxarma və emal sahələrində investisiya imkanlarını irəli aparmaq, eləcə də əlavə dəyər yaradan istehsalın, - o cümlədən aşağı axın sənayelərinin, - inkişafını təşviq etməklə Mərkəzi Asiyanın kritik minerallarını qlobal dəyər zəncirinə qoşmağa kömək etmək".

Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlətlərinin 7-ci Məşvərət Görüşündəki çıxışında qeyd edib ki, Azərbaycanın əsas ərazisinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi istiqamətində Vaşinqtonda əldə olunan razılaşmalar beynəlxalq tranzit imkanlarını genişləndirəcək. Dövlət başçısı bildirib ki, Zəngəzur dəhlizinin (TRIPP) tikintisinin bu il tamamlanması planlaşdırılır və ilkin mərhələdə 15 milyon ton yükdaşıma gücünə malik olacaq bu dəmir yolu Orta dəhlizin əsas hissəsinə çevriləcək. Prezident əlavə edib ki, yaxın illərdə buraxılış qabiliyyəti 25 milyon tona çatdırılacaq Ələt Beynəlxalq Limanı, həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu, beynəlxalq hava limanları və digər nəqliyyat imkanları Azərbaycanın mühüm beynəlxalq nəqliyyat mərkəzinə çevrilməsini təmin edir.

### Prezident İlham Əliyevin sülh gündəliyi və əməkdaşlığın perspektivləri

Bakı və Brüssel arasında əməkdaşlığı şərtləndirən mühüm amillərdən biri də Aİ Şurasının prezidenti Antonio Koşta, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında yüksək səviyyədə dialoqun olmasıdır. Ötən ilin mayında Tiranada, oktyabrda isə Kopenhagendə Avropa Siyasi Birliyinin sammitləri çərçivəsində aparılan danışıqlar hazırkı Bakı səfərinin əsasını təşkil etmişdir. Kopenhagen Zirvə görüşündə A.Koşta Prezident İlham Əliyevi Vaşinqtonda paraflanmış sülh sazişi münasibətilə təbrik etmiş və sonradan "X" sosial şəbəkəsində etdiyi paylaşımda regiona "Qlobal Qapı" təşəbbüsü çərçivəsində gələcəklərini elan etmişdir. Bu onu bir daha göstərir ki, Azərbaycanın işğala son qoymaqla yaratdığı yeni siyasi reallıq və yeni status əsasında qurulan əməkdaşlıq və bunların əsasında duran Prezident İlham Əliyevin sülh gündəliyi Aİ tərəfindən də qəbul olunur və dəyərləndirilir. Həmçinin ABŞ-dən sonra Aİ-nin də məhz bu reallıqları özündə ehtiva edən strateji tərəfdaşlıq qurması və bunu əhəmiyyətli layihələrlə möhkəmləndirməsi məhz Prezident İlham Əliyevin çoxölçülü xarici siyasət kursunun və mükəmməl diplomatik səylərinin nəticəsidir. Bu strateji tərəfdaşlıqların ikitərəfli münasibətlərlə yanaşı, həmçinin regional və qlobal miqyasda sülhə və sabitliyə xidmət edən layihələrin icrasını özündə ehtiva etməsi uzunmüddətli və perspektivli əməkdaşlıqdan xəbər verir.

Bu kontekstdə Mərkəzi Asiya ölkələri ilə C6 - yeni əməkdaşlıq platformasında yer almaq həmçinin Azərbaycanın dinamik artan beynəlxalq nüfuzunun regional səviyyədə və yeni bir platformada da bir daha təqdir olunması deməkdir. Həmçinin şanlı Zəfərimizdən sonra beynəlxalq mövqeləri möhkəmlənən Azərbaycana, dövlətimizin lideri Prezident İlham Əliyevin yeni siyasi reallıqları əks etdirən sülh və əməkdaşlıq gündəliyinə Mərkəzi Asiya dövlətlərinin verdiyi dəyərdir.

Ötən həftə XIII Qlobal Bakı Forumda çoxsaylı ali qonağın iştirakı da dövlətimizin sülh və əməkdaşlıq strategiyası ilə yerində tanış olmaq və onun müəllifi Prezident İlham Əliyevlə birbaşa dialoq qurmaq istəyinin göstəricisidir. Prezident İlham Əliyev çıxışında forumun məğzini belə dəyərləndirdi: "Hazırda təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər ölkə üçün əsas prioritetdir, çünki bunlar olmadan digər sahələr əhəmiyyətini itirir və buna görə dövlətlər səylərini bu istiqamətdə birləşdirməlidirlər".

Prezident İlham Əliyev çıxışında Azərbaycanın "Şərq-Qərb" nəqliyyat dəhlizi və "Şimal-Cənub" nəqliyyat dəhlizi üzrə əvəzolunmaz tərəfdaş olduğunu vurğulayıb. Azərbaycan regionda beynəlxalq nəqliyyat dəhlizlərinin genişlənməsinə ən çox töhfə verən dövlətlərdəndir. Azərbaycan regionda beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına əsas töhfə verən ölkələrdəndir və bu, ölkə üzərindən daşınan yüklərin həcminin artmasına səbəb olur. 2025-ci ildə "Cənub-Qərb" nəqliyyat dəhlizi üzrə yükdaşımalar 394,2 min tondan 533,6 min tona yüksələrək 35 faiz artıb. Eyni ildə "Şərq-Qərb" dəhlizi ilə 16,9 milyon ton, TRASEKA üzrə 8,17 milyon ton, "Şimal-Cənub" dəhlizi ilə 9,29 milyon ton, Şimal-Qərb nəqliyyat dəhlizi üzrə 5,8 milyon ton yük daşınıb. Qlobal geosiyasi risklərə baxmayaraq, "Şərq-Qərb" dəhlizi üzrə daşımalar sabit qalıb.

Nəqliyyat və tranzit bağlantıları sahəsində aparılan çoxşaxəli fəaliyyətlərin təhlili göstərir ki, Ermənistan illər əvvəl güc tətbiqi və deportasiya siyasəti ilə regionun demoqrafik xəritəsini dəyişmək üçün səylər edəndə, hərbi vasitələrlə, təcavüzkar müharibə vasitəsilə regionda beynəlxalq sərhədləri dəyişməyə cəhd edəndə Azərbaycan fərqli siyasət yürüdürdü. Regionun və Avrasiyanın enerji xəritəsinin, nəqliyyat-tranzit xəritəsinin yenidən tərtibi üçün öz resursları hesabına uğurlu enerji və nəqliyyat diplomatiyası həyata keçirirdi. 16 dövləti qazla təchiz edən Azərbaycan dünyada boru xətləri ilə ən böyük qaz təchizatçısı şəbəkəsini yarada bildi. Azərbaycan Prezidenti İlham Əliyevin hələ 15 il əvvəl əsasını qoyduğu bu uzaqgörən siyasət işğala son qoyulduqdan, yeni reallıqda yeni siyasi və iqtisadi əməkdaşlıq imkanları yarandığı bir şəraitdə öz bəhrəsini verir.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru***

**● Qanun layihələri və onların şərhi**

# Yerin təkindən istifadə ilə bağlı qanunvericilik təkmilləşdirilir

**Martın 17-də keçirilən Milli Məclisin növbəti plenar iclasında "Yerin təki haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda qəbul olundu. Bu layihə "Azərbaycan Respublikasında qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" ölkə Prezidenti İlham Əliyevin 2024-cü il 23 dekabr tarixli 420 nömrəli sərəncamına uyğun olaraq hazırlanmışdı.**



Bəs bu qanunun qəbulunda əsas məqsəd nədir? Məsələ ilə bağlı parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun fikirlərini öyrəndik. Onun sözlərinə görə, "Yerin təki haqqında" qanuna edilən dəyişikliklərin məqsədi yer təkinin istifadəsi sahəsində hüquqi tənzimləmə prosedurlarının təkmilləşdirilməsi, təbii ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması, ekoloji təhlükəsizliyin gücləndirilməsi və dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasının hüquqi əsaslarının dəqiqləşdirilməsidir. Yerin təkindən istifadə sahəsində mövcud problemlərin analizinin nəticələri nəzərə alınmaqla qanuna edilən dəyişikliklər əsasən yerin təkindən istifadəyə icazə və tələblərin sadələşdirilməsi, istismardan sonrakı mərhələdə rekultivasiya işlərinin aparılması, sözügedən sahəyə nəzarət edən dövlət qurumu tərəfindən həyata keçirilən monitorinq və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq təcrübə nəzərə alınmaqla yerin təkindən istifadə ilə bağlı texniki təhlükəsizlik və tikinti, geoloji öyrənmə, tədqiqat və sınaqların aparılması şərtləri, mədənlərin bağlanması üzrə dövlət standartlarının hazırlanması kimi məsələləri əhatə edir.

S.Qurbanov diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2024-cü il 10 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da su ehtiyatlarının artırılması, əhalinin keyfiyyətli içməli su və suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə mövcud su anbarlarının təmizlənməsi, təbii və texnogen çirklənmələrin aradan qaldırılması, su resurslarının dayanıqlı idarə edilməsi prioritet vəzifələr kimi qarşıya qoyulub: "Təmizləmə işləri nəticəsində uzun illər ərzində anbarlarda toplanmış qum, qum-çınqıl və gil tərkibli materialların çıxarılması anbarların hidravlik göstəricilərinin bərpa olunmasına, suyun keyfiyyətinin yüksəlməsinə və ətraf mühitin qorunmasına xidmət etməklə yanaşı, milyonlarla kubmetr inert materiallarının iqtisadi dövriyyəyə cəlb olunması ilə nəticələnəcək. Hazırda ölkədə 140-dan çox iri və orta su anbarı mövcuddur. Çöküntülərin yığılması nəticəsində bəzi anbarlarda faydalı tutum 15-35 faiz azalıb. Böyük anbarlarda hər il orta hesabla 0,3-1 faiz, kiçik və ortahəcmli anbarlarda isə 2-5 faiz tutum itkisi baş verir".

Komitə sədri qeyd edib ki, respublikamızda həyata keçirilən infrastruktur layihələri, o cümlədən tunellərin və metro stansiyalarının tikintisi zamanı çıxarılan süxur kütləsinin iqtisadi dövriyyəyə cəlb olunması mineral xammal ehtiyatlarından səmərəli istifadəyə və dayanıqlı resurs idarəçiliyinin təmin edilməsinə əhəmiyyətli töhfə verə bilər. Bu yanaşma faydalı qazıntılardan istifadə sahəsində rəqabətli mühitin yaradılmasına və dövlət nəzarətinin gücləndirilməsinə xidmət edəcək.

Komitə sədri qeyd edib ki, qanuna edilən dəyişikliyə uyğun olaraq hazırlanmış yeni qaydalar rekultivasiya institutunu kompleks şəkildə tənzimləyə biləcək. Nəticədə rekultivasiya planlarının hazırlanması, dövlət ekoloji ekspertizasından keçirilməsi, münbit torpaq qatının qorunması və bərpası, hidrogeoloji və mühəndis-geoloji şəraitin nəzərə alınması ilə bağlı tələblər müəyyən olunub ki, bu da keyfiyyəti pozulmuş torpaqların əvvəlki və ya alternativ faydalı vəziyyətə qaytarılmasını təmin edəcək.

"Aparılmış monitorinqlər nəticəsində bəzi ərazilərdə istismar işləri başa çatsa da, rekultivasiya işlərinin aparılmadığı da müşahidə edilib. Nəzərə alınmalıdır ki, bu işlər böyük maliyyə vəsaiti tələb edir. Bu səbəbdən yeni qaydalarda rekultivasiya xərclərinin qarşılanması üçün yer təki istifadəçiləri tərəfindən gələcək fəaliyyət üzrə vəsaitin mərhələli şəkildə əvvəlcədən ayrılması mexanizmi də nəzərdə tutulub", - deyə Sadiq Qurbanov əlavə edib.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***



# Regional liderlik missiyası

## Prezident İlham Əliyev Azərbaycanı qlobal proseslərdə söz sahibi olan ölkəyə çevirib

**Bəşəriyyət son onilliklərin ən mürəkkəb dövrünü yaşayır. Müxtəlif coğrafiyalarda baş qaldıran münaqişə ocaqları, böyük güclər arasındakı qarşıdurmalar qlobal təhlükəsizliyi təhdid edir. Belə bir qarışıq geosiyasi şəraitdə Azərbaycanın nümayiş etdirdiyi daxili sabitlik, təhlükəsizlik mühiti və xarici siyasət kursu beynəlxalq birliyin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən siyasət Azərbaycanı qlobal proseslərdə söz sahibi olan strateji tərəfdaşa çevirib.**

### Beynəlxalq diplomatiya

Bu gün beynəlxalq birlik Azərbaycanı təkcə enerji resursları ilə zəngin olduğuna görə yox, həm də regionun taleyini həll edən, sülhün və əməkdaşlığın əsas ünvanı olan ölkə kimi qəbul edir. Yürüdülən uzaqgörən siyasət nəticəsində Azərbaycan dünyada söz sahibi olan, rəyi soruşulan və etibarlı tərəfdaş kimi tanınan qüdrətli güc mərkəzinə çevrilib.

Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıq sülhə və qarşılıqlı hörmətə söykənir. İşğala son qoyulmasından sonra ölkəmizin irəli sürdüyü sülh gündəmi həm regional, həm də dünya miqyasında yüksək qiymətləndirilir. Buna rəsmi Bakı ilə yüksəksəviyyəli diplomatik təmasları misal göstərmək olar.

Martın 17-də Prezident İlham Əliyevlə Almaniya Kansleri Fridrix Merts arasında telefon danışığı olub. Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

Fridrix Merts Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesini alqışlayıb, bunun regional sabitlik üçün əhəmiyyətini qeyd edib.

Azərbaycan Prezidenti və Almaniya Kansleri ikitərəfli münasibətlərin perspektivlərini, həmçinin ölkəmizlə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Prezident İlham Əliyevlə Almaniya Kansleri Fridrix Merts arasında baş tutan telefon danışığı rəsmi Bakının Avropa üçün nə dərəcədə əhəmiyyətli olduğunu bir daha təsdiqlədi. Bu, ölkəmizin sabitləşdirici roluna verilən beynəlxalq qiymət olmaqla yanaşı, Prezident İlham Əliyevin yürütdüyü balanslı və prinsipial diplomatiyanın məntiqi nəticəsidir.

### Milli maraqların qətiyyətli müdafiəsi

Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması üçün bütün platformalarda konstruktiv mövqe nümayiş etdirir. Vaşinqton sammitində əldə olunan razılaşmaların sülh prosesində həlledici rolu da buna nümunədir. Lakin Bakının sülh istəyi hər zaman milli maraqların qətiyyətlə qorunması ilə paralel aparılır. Ərazi bütövlüyünü və suverenliyini öz gücünə təmin edən ölkəmiz bölgədə hər hansı kənar müdaxiləyə imkan verməyən prinsipial mövqe nümayiş etdirir.

Müasir dünyada təhdidlərin artdığı bir dövrdə sərhədlərin nəzarətdə saxlanılması və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi Azərbaycanın daxili sabitliyini qoruyan ən mühüm amillərdən biridir.

Bu kontekstdə Azərbaycanın quru sərhədlərini bağlı saxlaması qərarının, sadəcə, texniki deyil, tamamilə uzaqgörən dövlət strategiyası olduğu bir daha öz təsdiqini tapır. Bu uzaqgörənlik ölkəmizi xarici risklərdən sığortalayır və onun regionda təhlükəsizlik adası imicini möhkəmləndirir.

Azərbaycanın artan əhəmiyyəti həm də onun iqtisadi və logistik qüdrətinə söykənir. Ölkəmiz bu gün dünyanın enerji xəritəsini yenidən formalaşdıran bir aktordur. Bu gün Azərbaycanın 10 Avropa İttifaqı ölkəsinə qaz ixrac etməsi də buna nümunədir. "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan logistik mərkəz rolunu oynayır.

Bu iqtisadi potensial ölkəmizi beynəlxalq aləmdə əhəmiyyətli tərəfdaşa çevirib. Hazırda ABŞ-dən Çinə qədər dünyanın böyük ölkələrinin Azərbaycanı etibarlı tərəfdaş kimi tanımaları təsadüfi deyil. Onu da xüsusi vurğulamaq lazımdır ki, bu maraq təkcə enerji resursları, yaxud logistik imkanları ilə deyil, həm də ölkəmizin bölgədəki sabitləşdirici rolu ilə bağlıdır.

Azərbaycanın xarici siyasəti həm də dərin humanizm prinsiplərinə əsaslanır. Ölkəmiz çətin anlarda ehtiyacı olan xalqlara yardım əlini uzatmaqla özünün mənəvi liderliyini də nümayiş etdirir. Ukraynaya göndərilən davamlı yardımlar və qonşu dövlətlərlə qurulan humanitar körpülər bunun bariz sübutudur.

Bu xeyirxah missiyanın ən son nümunəsi qonşu İranla olan münasibətlərdə özünü göstərir. Belə ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, İrana növbəti humanitar yardım yola salınıb. Məqsəd qonşu və dost İran xalqının mövcud ehtiyaclarının qarşılanmasına dəstək göstərməkdir. Göndərilən budəfəki humanitar yardımın ümumi həcmi 82 ton təşkil edir. Eyni zamanda Novruz bayramı ərəfəsi nəzərə alınaraq, yardım karvanına bayram sovqatı və müxtəlif Novruz məhsulları da əlavə edilib. Bu addım Azərbaycanın regionda sülh, mehriban qonşuluq və humanitar həmrəylik tərəfdarı olduğunu bir daha dünyaya nümayiş etdirir.

Bu gün Azərbaycanın qlobal arenada qazandığı diplomatik uğurlar illərdir yürüdülən səbirli, düşünülmüş və milli maraqlara söykənən siyasətin bəhrəsidir. Dünyanın bir çox nöqtəsində qeyri-müəyyənliklərin hökm sürdüyü, hətta böyük dövlətlərin belə çətin sınaqlarla üzləşdiyi bir dövrdə Azərbaycanın sabitlik adasına çevrilməsi təsadüfi deyil. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu strategiya göstərir ki, güclü dövlət olmaq təkcə hərbi qüdrətlə deyil, həm də ağıllı tərəfdaşlıq qurmaqla, qonşularla mehriban münasibətləri qorumaqla və ehtiyacı olana humanitar yardım əli uzatmaqla mümkündür. Bu mənada tam əminliklə demək mümkündür ki, Azərbaycan həm öz milli maraqlarını qətiyyətlə qoruyur, həm də regional sülhün memarı kimi çıxış edir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Humanizm prinsipləri rəsmi Bakı üçün keçici siyasi gərginliklərdən üstündür

**Azərbaycan mehriban qonşuluq və humanizm prinsiplərini rəhbər tutaraq, İran İslam Respublikasında baş vermiş son hadisələrdən zərərçəkmiş insanlara dəstək məqsədilə bu ölkəyə növbəti humanitar yardım karvanını yola salıb. Prezident İlham Əliyevin birbaşa göstərişi ilə hazırlanan bu yardım paketi iki ölkə arasındakı tarixi və mənəvi bağların, eləcə də çətin anlarda nümayiş etdirilən qarşılıqlı həmrəyliyin növbəti göstəricisidir.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında deyib ki, yardım karvanına zərərçəkmiş əhalinin ilkin ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulmuş çoxsaylı ləvazimatlar daxil edilib. Azərbaycan tərəfi ümid edir ki, göndərilən bu yardımlar fəlakətin fəsadlarının aradan qaldırılmasında və insanların normal həyata qayıtmasında mühüm rol oynayacaq. Bu addım regionda sülhün, sabitliyin və humanitar dəyərlərin qorunmasına xidmət etməklə yanaşı, Azərbaycanın hər zaman olduğu kimi, ehtiyac duyan qonşularının yanında olduğunu bir daha sübut edir.

K.Bayramov qeyd edib ki, Azərbaycan və İran arasındakı münasibətlər zaman-zaman sınağa çəkilsə də, rəsmi Bakı hər zaman diplomatik dialoqa və humanizm dəyərlərinə sadiqliyini qoruyub saxlayır: "Bu baxımdan İran Prezidenti Məsud Pezeşkianın Azərbaycanın dövlət başçısı İlham Əliyevə zəng edərək bölgədəki gərginlik və atılan pilotsuz uçuş aparatları ilə bağlı məsələləri müzakirə etməsi ikitərəfli əlaqələrin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Müharibənin gətirdiyi qan, ölüm və dağıntıların miqyasını 30 ilə yaxın münaqişə şəraitində yaşamış və öz suverenliyini böyük fədakarlıqla bərpa etmiş bir xalq kimi Azərbaycan hamıdan yaxşı bilir. Məhz bu acı təcrübəyə söykənərək, rəsmi Bakı regionda yeni humanitar və iqtisadi fəlakətlərin baş verməməsi üçün tərəfləri - həm ABŞ-ni, həm İsraili, həm də İranı hərbi ritorikadan uzaqlaşıb danışıqlar masasına oturmağa dəvət edir. Bizim əsas marağımız qonşuluğumuzda gərginlik deyil, sülhün, inkişafın və tərəqqinin hakim olmasıdır. Bu sülhpərvər siyasətin əyani sübutu olaraq, baş vermiş insidentlərə və siyasi konyunktura baxmayaraq, Azərbaycan növbəti dəfə İrana humanitar yardım karvanı göndərmək qərarına gəlib. Bu yardım təkcə maddi dəstək deyil, həm də Azərbaycanın humanist dəyərlərə nə qədər sadiq olduğunun və qonşu xalqın çətin günündə onun yanında durmaq iradəsinin nümayişidir".

Deputat vurğulayıb ki, Azərbaycan dövləti növbəti dəfə qonşuluq və humanizm prinsiplərinin rəsmi Bakı üçün konyunktur maraqlardan və keçici siyasi gərginliklərdən qat-qat üstün olduğunu sübut edir. Son dövrlər İrandan ölkəmizə qarşı yönələn müxtəlif xoşagəlməz hücumlara və ritorikaya rəğmən Azərbaycan "dar günün dostu" olduğunu sözdə deyil, əməldə nümayiş etdirir. Bakıdan yola düşən humanitar yardım maşınları, sadəcə, diplomatik bir jest deyil, mahiyyəti daha dərin köklərə söykənən strateji və mənəvi bir addımdır. "Bu yardımın ən mühüm ünvanı, şübhəsiz ki, Arazın o tayında yaşayan milyonlarla soydaşımızdır. Müharibənin gətirdiyi çətinliklər, iqtisadi sıxıntılar və qeyri-müəyyənlik şəraitində Bakıdan göndərilən hər bir yük maşını soydaşlarımız üçün bir "ümid karvanı" mahiyyəti daşıyır. İllərdir İranın daxili ictimai rəyində formalaşdırılmağa çalışılan "Azərbaycan düşməndir" və ya "Azərbaycan İrana qarşı olan cəbhədə yer alır" kimi əsassız iddialar bu humanitar addımla alt-üst olur. Müharibənin davam etdiyi mövcud ağır şərtlərdə Azərbaycanın uzatdığı kömək əli gələcəkdə Cənubda anti-Azərbaycan mövqeyi yaratmaq istəyənlərin əlindəki bütün süni arqumentləri sıradan çıxarır. Bu fakt soydaşlarımızın daxili mühitdə öz milli kimliklərini və Azərbaycana olan sevgilərini müdafiə etmək üçün ən güclü mənəvi silahına çevrilir", - deyə o əlavə edib.

K.Bayramov bildirib ki, bu humanitar missiya təkcə bu günün ehtiyaclarını qarşılamır, həm də gələcək münasibətlərin əsasını qoyur. Azərbaycan öz suverenliyini bərpa etmiş qalib bir dövlət kimi bölgədə sülhün və tərəqqinin carçısı olduğunu nümayiş etdirir. İstənilən insidentə və təzyiqə baxmayaraq, humanist dəyərlərə sadiq qalmaq Azərbaycanın regional liderlik ambisiyalarının mənəvi sütunudur. Bakıdan göndərilən bu yardımlar həm diplomatik masada, həm də milyonlarla insanın qəlbində Azərbaycanın haqlı və xeyirxah mövqeyini bir daha təsdiq edir. Yardımın yolasalma mərasimində iştirak edən İranın Azərbaycandakı səfiri Müctəba Dəmirçilu bu addımı yüksək qiymətləndirərək, Prezident İlham Əliyevə xüsusi təşəkkürünü bildirib. Səfir bu humanist jestin hər iki xalqın müştərək mədəniyyətindən qaynaqlandığını vurğulayaraq bildirib: "Novruz bayramı ərəfəsində nümayiş etdirilən bu xoş niyyət olduqca təqdirəlayiqdir. Çox xoş və sevindirici haldır ki, yardım prosesinə ilk olaraq məhz Azərbaycan qoşuldu. Bu, bizim üçün son dərəcə əhəmiyyətlidir". İran səfiri Müctəba Dəmirçilunun Novruz bayramı ərəfəsində Azərbaycanın bu addımı ilk atan ölkə olmasını və "müştərək mədəniyyət" amilini xüsusi qeyd etməsi illərdir aparılan anti-Azərbaycan təbliğatına verilmiş tutarlı cavabdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan fərqli qütblərin kəsişdiyi etibarlı məkandır

## Bakının çoxvektorlu diplomatiyası ölkəmizin birləşdirici statusunu gücləndirir

**Dünya nizamının yenidən formalaşdığı, qlobal güc mərkəzləri arasında rəqabətin kəskinləşdiyi bir dövrdə Azərbaycan özünün geosiyasi taleyini təkcə coğrafi mövqeyi ilə deyil, həm də çevik və uzaqgörən diplomatiyası ilə müəyyənləşdirir.**

Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən ölkəmiz iki qitəni birləşdirən körpü rolunu oynamaqla yanaşı, eyni zamanda fərqli siyasi qütblərin ortaq maraqlarını uzlaşdıran strateji qovşaq statusuna sahibdir. Əlverişli coğrafi mövqeyini dünya gücləri arasında rəqabət meydanına çevirməyən Azərbaycan öz ərazisini daim əməkdaşlıq platforması kimi təqdim edib. Məhz Prezident İlham Əliyevin uzaqgörən siyasəti, düşünülmüş addımları və yürütdüyü çoxvektorlu xarici siyasət kursu Azərbaycanı dünyanın ən böyük iqtisadi və siyasi gücləri üçün əhəmiyyətli tərəfdaş statusuna yüksəldib.

Ölkəmiz bir tərəfdən Avropanın enerji təhlükəsizliyinin qarantı və ABŞ-nin regionda etibarlı müttəfiqi kimi çıxış edir, digər tərəfdən Çinin "Bir kəmər, bir yol" strategiyasının mərkəzi halqasına çevrilərək Şərqin, Mərkəzi Asiyanın iqtisadi intibahında açar rolunu oynayır. Qlobal nəqliyyat dəhlizlərinin mərkəzində yerləşən Azərbaycan regional sabitlik və əməkdaşlığın əsas dayaqlarından biri kimi çıxış edir. Unikal mövqe Azərbaycanı sabitliyin və əməkdaşlığın təhlükəsiz ünvanına çevirir. Bakının yürütdüyü bu siyasət beynəlxalq münasibətlər nəzəriyyəsində balanslaşdırılmış xarici siyasət və ya çoxvektorlu diplomatiya adlanır.

Təbii ki, sabitlik və inkişaf liderlik faktorundan, effektiv dövlət idarəçiliyindən və təhlükəsizlik təminatlarından çox asılıdır. Qlobal oyunçularla tərəfdaşlıq münasibətlərini eyni müstəvidə qoruyan balanslı strategiya çox vaxt ən düzgün seçim olur. Bu yanaşma nəticələri mərhələli şəkildə toplayır və ölkənin daha firavan, sabit və təhlükəsiz inkişaf yolunda irəliləməsinə şərait yaradır. Azərbaycan birmənalı olaraq Cənubi Qafqazın strateji dinamikasında əsas mərkəzdir. Dövlətimiz qlobal güclər arasında balansı qorumaqla bərabər, texnologiyalar, energetika və infrastruktur sahələrində yeni inkişaf imkanları axtarır və özünəməxsus yolunu formalaşdırır. Əlalxüsus, ABŞ və Avropa İttifaqının Cənubi Qafqaza marağının artması fonunda yüksək texnologiyalar, təhlükəsizlik və "yaşıl iqtisadiyyat" sahələrində əməkdaşlıq məsələləri xüsusi aktuallıq kəsb edir. İkitərəfli və çoxtərəfli layihələrin genişlənməsi regional sabitliyin möhkəmlənməsi və ölkənin qlobal iqtisadi və texnoloji sistemdə rolunun artması üçün imkanlar yaradır. Eyni zamanda strateji təşəbbüslər Cənubi Qafqazın uzunmüddətli inkişafına xidmət edir və Azərbaycanın müasir beynəlxalq dəyər zəncirlərinə inteqrasiyası üçün şərait formalaşdırır.



Azərbaycanın unikal mövqeyi həm də ondan irəli gəlir ki, ölkəmiz heç bir hərbi bloka üzv deyil və Qoşulmama Hərəkatında aparıcı rol oynayır. Bu, Bakıya həm Vaşinqton və Brüsselə, həm də Moskva və Pekinlə eyni dərəcədə münasibət saxlamaq imkanı verir. Ölkəmiz bütün gərgin şəraitlərdə, fors-major hallarda dünya gücləri arasındakı qarşıdurmalarda tərəf tutmaqdan imtina edərək neytral statusunu qoruyur. Bu mənada NATO və Rusiya generallarının, habelə ABŞ və Rusiya rəsmilərinin ən gərgin vaxtlarda məhz Bakıda görüşmələri təsadüfi deyil. Elə bu neytrallıq Azərbaycanı bloklararası soyuq müharibələrin hədəfi olmaqdan xilas edib. Üstəlik, Sülh Şurasında fəal iştirakçılıq və birləşdirici rol Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb.

Azərbaycan və Avropa İttifaqı arasındakı münasibətlər son illər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Bakıya səfəri də Azərbaycanın geosiyasi və iqtisadi proseslərdə artan rolunun göstəricisidir. Bu səfər Rusiya-Ukrayna müharibəsinin davam etdiyi, Yaxın Şərqdə və İran ətrafında gərginliyin artdığı bir dövrdə baş verdi. Belə şəraitdə Avropa İttifaqının ali rəhbərinin Azərbaycana səfəri ölkəmizin Avropa üçün strateji əhəmiyyətini bir daha sərgilədi. Eyni zamanda Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Azərbaycana səfəri zamanı enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandumun imzalanması da Avropa İttifaqı üçün Azərbaycanın nə qədər əhəmiyyətli tərəfdaş olduğunu göstərən amillərdən biridir.

Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qaz alır və ümumilikdə Azərbaycan qazının çatdırıldığı ölkələrin sayı 16-ya çatır. Eyni zamanda Avropa İttifaqının 27 üzv ölkəsinin üçdəbiri Azərbaycanla strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Bu isə o deməkdir ki, Avropa İttifaqı ölkələrinin təxminən yarıya yaxını Azərbaycanın rəsmi strateji tərəfdaşıdır. Birmənalı şəkildə demək olar ki, Avropa İttifaqının Mərkəzi Asiyaya və Çinə açılan qapılarından biri məhz Azərbaycandır. Bu baxımdan Çindən və Mərkəzi Asiyadan Avropaya çıxış üçün ən etibarlı və təhlükəsiz marşrutlardan biri Zəngəzur dəhlizi (TRIPP) və Azərbaycandan keçən, son illər istifadəsi daha da genişlənən nəqliyyat xətləridir.

Azərbaycan-ABŞ əlaqələri də strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Xüsusilə 2025-ci ilin avqustunda keçirilən Vaşinqton Sülh Sammitindən sonra Bakı-Vaşinqton əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. 2026-cı ilin fevralında ABŞ vitse-prezidenti Ceyms Devid Vensin Bakıya tarixi səfəri zamanı imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya münasibətləri ən yüksək səviyyəyə qaldırıb. ABŞ Bakını Avropanın enerji müstəqilliyinin əsas qarantı və antiterror əməliyyatlarında etibarlı müttəfiq kimi görür. Azərbaycan NATO-nun 11 üzvünün enerji təhlükəsizliyini təmin edir. Hazırda rəqəmsal platformaların yaradılması və ABŞ investisiyalarının qeyri-neft sektoruna cəlbi də prioritetdir.

İkitərəfli münasibətlərin inkişaf mərhələsini yaşadığımız əsas tərəfdaşlardan biri də dünyanın nəhənglərindən sayılan Çindir. 2025-ci ilin aprelində Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı imzalanmış Birgə Bəyannamə ilə iki ölkə arasında əlaqələr hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Pekin Bakını "Bir kəmər, bir yol" layihəsinin mərkəzi qovşağı və Avropaya açılan ən təhlükəsiz qapı hesab edir. Azərbaycan Çin yüklərinin Avropaya çatdırılması üçün Orta dəhlizin əsas operatorudur. Bakı limanı və dəmir yolları Çin üçün dar boğazları aradan qaldıran əsas infrastrukturdur.

Azərbaycan Mərkəzi Asiya ölkələrinin də Qərbə çıxış qapısıdır. Mərkəzi Asiyanın enerji resursları Azərbaycan vasitəsilə dünya bazarına yol tapır. Ölkəmiz Türk Dövlətləri Təşkilatının ideoloji və logistik mərkəzi statusundadır. Bakı mütəmadi olaraq türk dövlətləri arasındakı inteqrasiya proseslərinin təşəbbüskarı kimi çıxış edir. Bu, regionun xarici təsirlərdən qorunması üçün vahid təhlükəsizlik qurşağı yaradır. Mərkəzi Asiyanın zəngin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxışı üçün Azərbaycan ən təhlükəsiz və qısa marşrutun üzərində olan ölkədir. Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqli artıq reallıqdır. Bu, Mərkəzi Asiya dövlətlərinə öz resurslarını diversifikasiya etmək imkanı verir. Türkmənistan qazının Azərbaycan üzərindən "Cənub qaz dəhlizi"nə qoşulması perspektivləri Avropanın enerji xəritəsində Bakını mərkəzi qovşaq halına gətirir.

Bütün bunlar Azərbaycanın geosiyasi arxitekturadakı vazkeçilməz birləşdirici rolunu tam ifadə edir. Ölkəmizin obyektiv, ədalətli və neytral mövqeyi onu həm Şərq, həm də Qərb üçün strateji tərəfdaş statusunda saxlayır və Bakının beynəlxalq arenada manevr imkanlarını artırır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Bakı "neft akademiyası" olduğunu bu gün də sübut edir

### Azərbaycanda fəaliyyət göstərən tanınmış xarici neft şirkətləri yerli kadrların bacarığını yüksək qiymətləndirirlər

**1990-cı illərin sonunda Azərbaycanın xarici şirkətlərlə birgə işlənən neft-qaz layihələrində çalışanlar sırasında xeyli əcnəbi vətəndaş var idi. O vaxt hələ SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) birinci vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev böyük uzaqgörənliklə demişdi ki, vaxt gələcək, bu layihələrdə çalışanların 90 faizi öz vətəndaşlarımız və yalnız 10 faizi xaricilər olacaq.**



O zaman bu fikrə inamsızlıqla yanaşanlar az deyildi. Hətta müxalifət mətbuatı deyilənin mümkün olmayacağını yazırdı. Lakin illər keçdikcə dövlətimizin başçısının bu proqnozu da özünü doğrultdu. İndi neft, qaz və ixrac layihələrimiz çərçivəsində çalışanların əksəriyyəti Azərbaycan vətəndaşıdır.

Təkcə BP şirkətində işləyənlərin sayını göstərən rəqəmlərə diqqət yetirmək kifayətdir. BP-nin keçən ilin yekunlarına aid hesabatında bildirilir ki, ilin sonunda şirkətin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı 2344 nəfər təşkil edib. Buraya müddətli müqavilə əsasında işləyənlər də daxildir.

Qeyd edək ki, 2018-ci ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizi milli kadrlardan ibarətdir. İxtisası olmayan işçilərin isə hamısı yerli vətəndaşlardır.

Şirkətin rəhbər heyətində də Azərbaycan vətəndaşları yüksək vəzifələr tuturlar. Məsələn, Bəxtiyar Aslanbəyli xeyli müddətdir BP-nin Xəzər bölgəsində Xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidentidir. Və belə misallar çoxdur.

Elə bu yaxınlarda şirkətdən aldığımız bir məlumatı da diqqətə çatdıraq. Bu il aprelin 1-dən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üçün maliyyə məsələləri üzrə vitse-prezidenti vəzifəsində Nadir İmanov çalışacaq. Nadir İmanov hazırda şirkətin Yaxın Şərq və Şimali Afrikada maliyyə üzrə vitse-prezidentidir. Yeni vəzifəsində isə BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə maliyyə məsələlərinin idarə edilməsinə cavabdeh olacaq. O, BP-nin London ofisindəki hasilat və əməliyyatlar sahəsində maliyyə məsələləri üzrə baş vitse-prezidentinin rəhbərliyi altında çalışacaq.

Nadir İmanov bu vəzifədə Azərbaycan, Gürcüstan və Türkiyə regionunda maliyyə məsələləri üzrə hazırkı vitse-prezident Kolin Allanı əvəz edəcək. Kolin isə aprelin 1-dən Birləşmiş Krallığa qayıdacaq.

Bu vəzifədə N.İmanov BP-nin Azərbaycanda yerli vətəndaş olan yeddinci vitse-prezidenti kimi regional rəhbər heyətin üzvü olacaq. Onun 30 ildən artıq planlaşdırma və kommersiya sahəsində təcrübəsi var və əsasən də BP əməkdaşı kimi Azərbaycan, Türkiyə, Misir və Omanda çalışmaqla həmin ölkələrdə böyük komandalara və iri biznes sahələrinə rəhbərlik edib.

Bu gün Xəzərin qoynunda dünyaşöhrətli xarici neft şirkətləri ilə birlikdə yaradılan konsorsiumların həyata keçirdiyi qlobal layihələrdə çalışan soydaşlarımız səriştəsini daim artıran, qabaqcıl təcrübələri əxz edən yüksəksəviyyəli mütəxəssisdirlər. Xəzərin Azərbaycan bölməsindəki "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında belələri onlarcadır. İndi bu yataqlardakı platformaların hamısına azərbaycanlı mütəxəssislər rəhbərlik edir. Siyahı bir qədər uzun olsa da, ürəyimizdən onların hər birini təqdim etmək keçir. Çünki bu, qürurludur. Beləliklə, "Çıraq" platformasına növbə ilə Vüqar Məmmədov və İlqar Qulubəyov, "Qərbi Çıraq"a Ruslan Dövlətov və Amal İbadzadə, "Şərqi Azəri"yə Fərman Ağaquliyev və Namiq Əliyev rəhbərlik edirlər. "Mərkəzi Azəri"də rəhbər Cavid İsgəndərli, "Qərbi Azəri"də Emin İbrahimov, "Dərinsulu Günəşli"də Emin Abdullazadədir. "Azəri Mərkəzi Şərqi" platformasına rəhbərlikdə isə Rəşad İsgəndərov və Bəhmən Quliyev növbələşirlər. "Şahdəniz Alfa" platformasına Fuad İsmayılov, "Şahdəniz Bravo" platformasına isə Cəlal Xalıqov rəhbərlik edirlər.

Şirkətdə çalışan, o cümlədən rəhbər vəzifə tutan xaricilər həmişə bir həqiqəti vurğulayırlar ki, Azərbaycanın neft mütəxəssislərinin bilik və bacarığına söz ola bilməz. Cari ayın əvvəlində BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofolinin jurnalistlər üçün keçirdiyi brifinqdə söylədikləri bunu bir daha təsdiqləyir. O dedi ki, bu vəzifədə çalışdığı vaxtdan əvvəl də keçmiş işləri ilə əlaqədar Bakıya gələndə istər BP-də çalışan, istərsə də ümumiyyətlə, ünsiyyətdə olduğu digər azərbaycanlı mütəxəssislərin yüksək qabiliyyətinə və səriştəsinə yaxşı mənada təəccüb edib . Onlarla birlikdə işləməyi arzulayıb.

Onu da əlavə edək ki, BP bu gün də yüksəksəviyyəli kadrlar yetişdirmək üzrə təlim və inkişaf proqramları həyata keçirir. Şirkət bundan sonra da həmin istiqamətdə səylərini davam etdirmək qərarındadır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Tərtərdə şəhid ailələrinə və qazilərə daha 25 mənzil verildi



**Şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı tədbirlərinin davamı olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Tərtər rayonunda da bu kateqoriyaya aid vətəndaşlara 25 mənzil təqdim edilib.**

Tərtərdə yeni inşa olunmuş yaşayış binasından mənzillərin təqdim edilməsi tədbirində iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparat rəhbərinin müavini Nihad Muxtarlı şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial dəstək tədbirləri ilə əhatə olunduqlarını vurğulayıb.

Qeyd edilib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi Zəfər əldə etdiyi Vətən müharibəsindən sonra dövlətimizin başçısının göstərişi ilə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Müharibədən sonrakı dövrdə onlara 7300-ə yaxın, ümumilikdə isə ötən illər ərzində 16 mindən çox mənzil və fərdi ev təqdim edilib.

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin artırılması, onların digər dəstək tədbirləri ilə əhatə olunması sahəsində aparılan işlərdən bəhs olunub.

Yeni mənzillə təmin olunan vətəndaşlar onların sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirlərə, bu gün yeni mənzillə təmin edildiklərinə görə Prezident cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

## 270 qazi reabilitasiya olunaraq sağlamlıqlarına qovuşub

**Tarixi Zəfərimizlə yekunlaşan Vətən müharibəsindən sonrakı dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 3800 qaziyə tibbi və sosial-psixoloji reabilitasiya xidmətləri göstərilib.**

Agentliyin reabilitasiya mərkəzlərində onların reabilitasiya potensiallarının reallaşdırılması üçün davamlı olaraq məqsədyönlü işlər aparılıb. Bu məqsədlə peşəkar həkim komandası tərəfindən müasir və effektiv reabilitasiya üsulları tətbiq olunub.

Görülən işlər nəticəsində qeyd edilən qazilərdən artıq 270 nəfəri reabilitasiya olunaraq əvvəlki sağlamlıqlarına qovuşub və əlilliklərini geridə qoyub. Digər qazilərlə də reabilitasiya işləri davam edir.

Müharibədə əzalarını itirmiş hərbçilərimizin yüksəktexnologiyalı son nəsil protezlərlə, qaçış üçün yüksəktexnologiyalı protezlərlə təminatı işləri də aparılıb. Bu reabilitasiya vasitələri müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sərbəst və aktiv, rahat hərəkətlər etmələrinə imkan verir.



## Sənaye zonalarına 7 milyard manat sərmayə yatırılıb

**Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) məlumat yayıb.**

Məlumatda bildirilir ki, İZİA-nın idarəetməsində olan sənaye zonalarına ümumi investisiya portfeli 8,7 milyard manatdan artıq olan layihələr üzrə sahibkarlar tərəfindən 7 milyard manat faktiki sərmaye yatırılıb. Bu hesaba 82 müəssisə fəaliyyətə başlayıb və 9700-dən artıq daimi iş yeri yaradılıb.

## Cəbrayılın Horovlu kəndində növbəti əmək yarmarkası keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və "19 saylı Tikinti Təmir İdarəsi" MMC-nin birgə təşkilatçılığı ilə Cəbrayıl rayonunun Horovlu kəndində növbəti əmək yarmarkası keçirilib.**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Cəbrayılın Horovlu kəndindəki ofisində keçirilmiş yarmarkada 17 mart 2026-cı il tarixdə Horovlu kəndinə köç etmiş sakinlər də iştirak ediblər.

Aktiv məşğulluq tədbirində hörgüçü, rəngsaz, elektrik köməkçisi, yol mühəndisi, üzlükçü, sürücü, qaynaqçı və s. üzrə vakansiyalar təqdim olunub. Vətəndaşlara vakansiyaların tələbləri barədə məlumat verilib, uyğun namizədlərin qeydiyyatı aparılıb.

Yarmarkaya qatılan şəxslərə işğaldan azad olunmuş ərazilərdə agentliyin icra etdiyi digər məşğulluq proqramları barədə məlumatlar verilib.

## Xidmət sektoru iqtisadi inkişafın lokomotivinə çevrilir

### Ölkəmiz də bu sahə üzrə müasir standartlardan geri qalmamağa çalışır

**Gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilmiş xidmət sahələri bu gün iqtisadi inkişafın əsas göstəricilərindən biridir. Bu sahə sürətlə genişlənərək Azərbaycanın sosial-iqtisadi həyatında mühüm rol oynayır. Xidmət sektorunun inkişafı məşğulluğun artmasına, əhalinin rifah səviyyəsinin yüksəlməsinə və yeni biznes imkanlarının yaranmasına təkan verir.**

Azərbaycanda xidmət sektoruna ticarət, turizm, nəqliyyat, logistika, maliyyə, informasiya texnologiyaları, təhsil, səhiyyə daxildir. Nəqliyyat sahəsi avtomobil, dəmir yolu, hava və dəniz daşımalarını, həmçinin yük və sərnişin daşımalarını əhatə edir. Ticarət və ictimai iaşə sahəsinə mağazalar, restoranlar, kafe və digər satış xidmətləri daxildir. Bank və maliyyə xidmətləri bank əməliyyatları, kreditlər, sığorta və onlayn maliyyə xidmətlərini özündə birləşdirir. Rabitə və informasiya texnologiyaları mobil rabitə, internet xidmətləri, proqram təminatı və digər informasiya texnologiyalarını əks etdirir. Sağlamlıq və sosial xidmətlər, xəstəxanalar, poliklinikalar, sosial yardım və məsləhət xidmətləri də xidmət sektorunun vacib hissəsini təşkil edir. Bu sahələr ölkənin iqtisadi inkişafına, insanların həyat səviyyəsinin yüksəlməsinə və sosial rifahın yaxşılaşmasına birbaşa təsir göstərir.




Belə mürəkkəb və müxtəlif sahələri əhatə edən xidmət sektorunun inkişafını və qarşılaşdığı problemləri ekspert və mütəxəssislər yaxından izləyirlər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Əsədovun fikrincə, hazırda qlobal siyasətdə baş verən geosiyasi dəyişikliklər iqtisadi proseslərə, xüsusilə xidmət sektoruna ciddi təsir göstərir. Yaxın Şərqdə davam edən siyasi və hərbi gərginlik regionda yerləşən Azərbaycan üçün həm risklər, həm də yeni iqtisadi imkanlar yarada bilər: "Xüsusilə nəqliyyat-tranzit, logistika və turizm xidmətlərinin inkişafı baxımından mövcud şəraitin dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Konkret olaraq, 2024-cü ildə 3,2 milyard dollarlıq nəqliyyat xidmətləri ixrac edilib və 1,3 milyard dollarlıq müsbət saldoya nail olunub. Ölkəmizin nəqliyyat, tranzit-logistika və turizm xidmətləri sahəsindəki potensialı bu sahələrin uzunmüddətli inkişafını dəstəkləyir. Azərbaycan sabit və stabil dövlətdir".

Ölkəmizdə xidmət sektoru son iki onillikdə sürətlə inkişaf edib. Dövlət iqtisadiyyatın şaxələndirilməsi çərçivəsində daha çox turizm, nəqliyyat, ticarət və maliyyə sahələrinə diqqət göstərib. Turizm sahəsində yeni hotellər, istirahət zonaları və kurort kompleksləri yaradılaraq ölkənin müxtəlif bölgələrinə turistlərin cəlb olunması üçün infrastrukturu gücləndirilib. Regionda sabitliyin qorunduğu bir zamanda turizm sektorunda yaradılmış müsbət nəticələr indiki halda bir qədər də artırıla bilər. Ölkəmizdə təmin olunmuş sabitlik və işğaldan azad edilmiş ərazilərin yaratdığı yeni imkanlar Azərbaycanı alternativ turizm marşrutu kimi aktuallaşdırır. Turizmin müxtəlif növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur, lakin hər bir sahənin daxili rəngarəngliyini artırmaq məqsədi ilə sistemli addımların atılması vacibdir. Əyləncə turizminin inkişafı turistlərin cəlb olunmasına, regionların və ölkənin tanıdılmasına, eləcə də ənənəvi inkişaf istiqamətlərinin qorunub saxlanılmasına imkan verir. Bu məqsədlə müxtəlif regionlarda, xüsusən işğaldan azad edilmiş ərazilərdə, xalçaçılıq turları, şəbəkə sənəti və kulinariya üzrə təcrübələr, həmçinin kənd turizmi proqramları təşkil etmək mümkündür.

Azərbaycanın nəqliyyat strategiyası təkcə müasir infrastrukturun inşası və daşımalardan gəlir əldə etməklə kifayətlənmir. O həm də "yaşıl inkişaf", ekoloji davamlılıq və rəqəmsal idarəetmə kimi əsas prinsiplərə söykənir, ümumi regional inkişafa töhfə verməyi hədəfləyir. Bu strategiya nəqliyyat əlaqələrinin əhatə etdiyi bütün ölkələr üçün yalnız logistika və ticarət baxımından deyil, həm də uzunmüddətli iqtisadi inkişaf, regional inteqrasiya, strateji tranzit mövqeyi və geosiyasi güc baxımından böyük əhəmiyyət kəsb edir. Üstəlik, nəqliyyat-tranzit xidmətləri digər sahələrin inkişafına da müsbət təsir göstərir.

Qeyd edək ki, müasir dövrdə xidmət sektoru dünya iqtisadiyyatının, eləcə də milli təsərrüfatların ən vacib sahələrindən biridir. Bu sektor ölkələrin iqtisadi inkişafında, məşğulluğun təmin olunmasında və sosial rifahın yüksəldilməsində mühüm rol oynayır. Texnologiyanın inkişafı, qlobal ticarətin genişlənməsi və beynəlxalq əlaqələrin artması xidmət sahələrinin də inkişafını sürətləndirir. Regionda baş verən geosiyasi proseslər iqtisadi fəaliyyətə müxtəlif təsirlər göstərir. Bu cür vəziyyətlər bəzən risklər yaratsa da, yeni iqtisadi imkanlar açır. Təbii ki, vəziyyəti düzgün qiymətləndirən tərəflər bundan daha çox faydalanır. "Ölkəmizin əlverişli coğrafi mövqeyi, sabitlik və tərəqqi mühiti, inkişaf etmiş infrastrukturu və həyata keçirilən iqtisadi islahatlar, proqram təminatlı dövlət idarəetməsi nəinki nəqliyyat-tranzit, ümumilikdə xidmət sektorunun inkişafı üçün geniş imkanlar yaradır, Azərbaycanın regional iqtisadi mərkəz kimi əhəmiyyətini daha da artırır", - deyə Aqil Əsədov bildirib.

Ticarət və ictimai iaşə sahəsində isə müasir marketlər, restoranlar və kafe şəbəkələri yaranıb, xidmət keyfiyyəti əhəmiyyətli dərəcədə artıb. Bank və maliyyə xidmətləri sahəsində onlayn ödənişlər, kredit sistemləri və sığorta xidmətləri genişlənib, rabitə və informasiya texnologiyaları isə internet, mobil rabitə və proqram təminatı vasitəsilə insanların gündəlik həyatını asanlaşdırıb.

Bütün bunlr onu göstərir ki, xidmət sahələri Azərbaycanın iqtisadiyyatında və sosial həyatında əvəzolunmaz rol oynayaraq vətəndaşların rifahına, eləcə də ölkəmizin beynəlxalq imicinə müsbət təsir göstərir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Vətənpərvərlik tərbiyəsi

# Azərbaycan xalqının qətiyyəti, Vətən sevgisinin gücü



**Vətən sevgisi yalnız bir coğrafi sahəyə bağlılıq deyil, bir millətin mənəvi kimliyini qorumaq və gələcək nəsillərə ötürmək istəyidir. Hər bir insanın vətənə olan sevgisi onun həyatı boyunca şəxsiyyətini formalaşdıran ən vacib amillərdən biridir. Millətin birlik və bərabərliyinin təməli bu sevgi ilə qoyulur.**

Vətənpərvərlik gündəlik həyatın hər anında insanın milli-mənəvi dəyərlərinə sadiq qalmasında, cəmiyyətə xidmət etməsində və kökənlərinə bağlı qalmasında özünü göstərir. Vətənə olan sevgi həm də mənsub olduğun xalqın tarixinə, mədəniyyətinə, zəngin adət-ənənələrinə, dilinə ehtiram, təəssübkeşlikdir.

Azərbaycan xalqı tarixinin müxtəlif dövrlərində vətən sevgisi ilə sınağa çəkilib. Əsrarəngiz təbiətli, təbii sərvətlərlə zəngin olan məmləkətimiz zaman-zaman yadellilərin hücumlarına məruz qalıb. Xalqımız yurdunu yağılardan qorumaq üçün çox çətin sınaqlardan keçməli olub, cəsurluğunu, qəhrəmanlığını belə ağır məqamlarda nümayiş etdirib. İgid övladları heç vaxt düşmənin qarşısında boyun əyməyib, ondan aman diləməyib. Hər zaman qalib gələ bilməsələr də, doğma vətən torpaqlarımız işğala məruz qalsa da, mübarizə əzmini itirməyiblər.

Bu xalqa ruhundan gələn mərhəməti, xeyirxahlığı, humanistliyi bəzən bəlalar gətirib. Yurdunda sığınacaq, süfrəsində yer verdikləri yaxşılıqlarının əvəzini yamanlıqla "ödəyiblər". Çar Rusiyasının öz yerini möhkəmlətmək üçün Cənubi Qafqaza köçürdüyü ermənilər də Azərbaycanda yalnız rəhm, xeyirxalıq görmüşlər. Azərbaycan xalqı onlara yurdunda yaşamağa yer vermişdi. Məkrli ermənilər əvvəlcə özlərini yazıq, aciz göstərirdilər. Amma yerlərini möhkəmlətdikcə torpaq iddiasına düşmüşlər. Və havadarları sayəsində məqsədlərinə çatmışlar. Azərbaycan torpaqlarında tarixdə heç zaman mövcud olmamış Ermənistan dövləti qurmuşlar. Lakin bununla da kifayətlənməmişlər. Hər dəfə tarixin üzü dönəndə, iğtişaşlar, tətillər, üsyanlar, inqilablar baş verəndə işğalçı ermənilər fürsətdən istifadə etmək üçün hərəkətə keçmişlər. Eynilə XX əsrin sonlarında olduğu kimi...

O zaman da mürəkkəb, ziddiyyətli ictimai-siyasi hadisələr baş verməkdə idi. Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) adlı nəhəng imperiyanın çöküşü Azərbaycan xalqının müstəqillik arzusunu daha da gücləndirmişdi. 1980-ci illərin axırlarına doğru sovet hakimiyyəti zəiflədikcə Azərbaycanda müstəqillik hərəkatı genişləndi. 70 illik sovet rejimi respublikamızın iqtisadi və sosial strukturunu dəyişdirmişdi. Uzun illər kütləvi həbslər həyata keçirməklə, ən ağır cəzalarla azərbaycanlıların gözünün odunu almağa çalışmışdılar. Amma Azərbaycan xalqının vətənpərvər ruhunu məhv etməyə gücləri yetməmişdi. 1990-cı ilin yanvarında baş verən faciə də bir daha göstərdi ki, heç bir qüvvə bu xalqı müstəqillik yolundan döndərə bilməz. Can verməkdə olan sovet hökumətinin rəhbərləri o zaman yenidən milli münaqişəyə rəvac verdi.

Qarabağdan ermənilərin azərbaycanlılara hücum etmələri barədə xəbərlər gəlməyə başladı. Erməni quldurları getdikcə münaqişə ocağını daha da körüklədilər və müharibə alovu Qarabağı, Şərqi Zəngəzuru bürüdü.

Birinci Qarabağ müharibəsində Azərbaycan xalqı tarixinin ən böyük faciələrini yaşadı. Təcavüzkar ermənilər Qarabağda və Şərqi Zəngəzurda azərbaycanlıların evlərinə od vurdular, yurdlarını yerlə bir etdilər. Minlərlə soydaşımız şəhid oldu, şikəst edildi, əsir götürüldü. Bir milyondan çox azərbaycanlı amansızlıqla yurdundan qovuldu. 1990-cı illərdə Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olundu. Həmin ərazilərimiz - Qarabağ və Şərqi Zəngəzur torpaqları 30 ilə yaxın Ermənistanın işğalı altında qaldı. Bu həm xalqımız, həm də dövlətimiz üçün olduqca ağır bir imtahan idi.

Bir sıra dövlətlər və beynəlxalq təşkilatlar Azərbaycanın haqq səsini "eşitmir", üzləşdiyi faciələri "görmürdülər". Məqsədləri işğal müddətini uzatmaq, Azərbaycan dövlətini və xalqını bu ədalətsizliklə barışdırmaq idi. Ancaq qarşılarında öz vətənini canından çox sevən Azərbaycan xalqı, ölkəsinin suverenliyini bərpa etmək üçün böyük qətiyyət göstərən Azərbaycan dövləti vardı. Azərbaycan xalqı Silahlı Qüvvələrinin Ali Baş Komandanının, Prezident İlham Əliyevin əmrini gözləyirdi.

2020-ci ilin payızında Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində baş verən İkinci Qarabağ müharibəsi Azərbaycanın yalnız hərbi gücünün, qüdrətinin nümayişi olmadı. Həm də xalqımızın vətən sevgisinin sönməz olduğunu bütün dünyaya göstərdi. İgid Azərbaycan oğulları ağır döyüşlərdə şücaət göstərərək Qarabağ və Şərqi Zəngəzur torpaqlarını düşməndən azad etdilər. İşğalçı Ermənistanın əsgər və zabitləri qəhrəman Azərbaycan Ordusunun qarşısında aciz qaldılar, çoxu silahını ataraq döyüş meydanından qaçdı.

2023-cü ilin sentyabrında aparılan antiterror əməliyyatı Azərbaycan Ordusunun qələbə əzmini, peşəkarlığını bir daha göstərdi. Ordumuzun qalibiyyəti ölkəmizin suverenliyinin tam bərpası ilə nəticələndi. Vətənin hər qarışı, hər guşəsi düşməndən təmizləndi. Bütün Azərbaycan xalqının qüruru olan üçrəngli, ay-ulduzlu bayrağımız bütün ərazilərimizdə dalğalandı.

Azərbaycan xalqı indi uzun illər həsrətində olduğu günlərə qovuşub. Keçmiş məcburi köçkünlər "Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirilmiş işlər nəticəsində yenidən salınmış yurdlarına qayıdırlar. Bu qayıdış Azərbaycan xalqının birliyinin, yurda bağlılığının, vətənə olan sonsuz sevgisinin təcəssümüdür,

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Çanaqqala döyüşlərindən 111 il ötür

**Martın 18-i Birinci Dünya müharibəsinin ən qanlı hərbi əməliyyatlarından biri olan Çanaqqala döyüşlərinin anım günüdür. Bu gün tarixin ağrılı olduğu qədər də şərəfli günlərindən sayılan Çanaqqala Dəniz Zəfərindən 111 il keçir.**



AZƏRTAC xəbər verir ki, hər il bu gün Türkiyədə Çanaqqala Dəniz Zəfəri və 18 Mart - Şəhidləri Anma Günü kimi yad edilir.

Bu döyüşlərdə Osmanlı Ordusu 250 min şəhid versə də, Çanaqqala boğazının keçilməz olduğunu düşmənə sübut edib.

1915-ci il martın 18-dən 1916-cı il yanvarın 9-dək davam edən Çanaqqala döyüşləri Osmanlı ilə Antanta dövlətləri arasında baş vermiş dəniz və quru döyüşləridir. İttifaq ölkələri Osmanlı dövlətinin paytaxtı İstanbulu işğal edərək boğazlara nəzarəti ələ keçirmək, Rusiya ilə etibarlı ticarət yolu açmaq, Almaniyanın müttəfiqlərindən birini zəiflətmək məqsədilə ilk hədəf olaraq Çanaqqala boğazına girərək müharibənin taleyini qəti şəkildə həll etməyi planlaşdırırdı. Lakin türk ordusunun qəhrəmanlığı düşmənin bu planını puça çıxarıb. Bu qanlı döyüşlərdə hər iki tərəf ağır itkilər verib. Antanta dövlətlərinin hərbi dəniz qüvvələrinin Çanaqqala boğazını keçmək cəhdlərinin qarşısı tam alınıb. Bu döyüşlər türk xalqının hərb tarixinə qızıl hərflərlə yazılıb.

Azərbaycan ilə Türkiyə arasındakı qardaşlığın və tarixi bağların rəmzlərindən olan Çanaqqala döyüşlərində şəhid olanların 3 mindən çoxu azərbaycanlıdır.

Qeyd edək ki, bu tarixi gün münasibətilə Türkiyədə silsilə tədbirlər keçirilir.

● Müharibə və incəsənət

# Soyuq rənglərdən yaranan isti tablolar

## II qrup müharibə əlili rəssam İntiqam Ağayev döyüş xatirələrini fırçası ilə nəql edir

**Qoynunda doğulub boya-başa çatdığın Vətənə düşmən hücum çəkəndə kimliyindən asılı olmayaraq əli silah tutanların hamısı yurdun müdafiəsinə atılır. Erməni qəsbkarlarının hücumları nəticəsində Birinci Qarabağ müharibəsi başlayanda da torpaq təəssübü çəkən qeyrətli oğullar könüllü olaraq döyüşlərə yollandılar. Həmin gərgin günlərdə yurdumuzun müdafiəsinə qalxanların sırasında tanınmış rəssam, Azərbaycan Rəssamlar İttifaqının üzvü İntiqam Ağayev də var idi.**

Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş rəssamın yaradıcılıq və döyüş yollarından söhbət açmazdan əvvəl onu daha yaxından tanımaq üçün bioqrafiyasına diqqət yetirdik. Öyrəndik ki, o, 1966-cı ildə Sumqayıtda dünyaya göz açıb. 1973-cü ildə çiynində məktəbli çantası birinci sinfə gedib. Kiçik yaşlarından rəssamlığa maraq göstərən İntiqam dərs dəftərlərində daha çox şəkillər çəkib.

Rəssam olmaq arzusu ilə beləcə yaşaya-yaşaya gələcək sənət yolunu müəyyənləşdirib. 1983-cü ildə orta təhsilini bitirən İntiqam Ağayev Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə üz tutub. Burada rəssamlıq sənətinin sirlərinə dərindən yiyələnib. Gənc yaşlarından milli-azadlıq hərəkatına qoşulan rəssam müstəqil dövlətimizin ordusu yarananda onun ilk əsgərlərindən biri kimi Qarabağın müdafiəsinə yollanıb. Şuşa, Ağdam, Tərtər, Goranboy, Füzuli, Xocalı və başqa bölgələrdə erməni işğalçılarına qarşı vuruşub. 1993-cü ildə kiçik leytenant rütbəsi alıb. Tərtərin ərazisi uğrunda gedən döyüşlərdə başından yaralanan İntiqam sağalandan sonra yenə barıt qoxulu səngərlərə qayıdıb.

Baş leytenant, II qrup Qarabağ müharibəsi əlili İntiqam Ağayev bizimlə söhbət zamanı həm döyüş, həm də yaradıcılıq yolundan söz açdı:

- 1992-ci ilin fevral ayında mən yenicə yaranmağa başlayan ordumuzun sıralarında idim. O vaxtlar bütün vətənpərvər oğullar Qarabağın kənd və şəhərlərinə hücum edən erməni işğalçılarına qarşı vuruşmaq üçün hərbi hissələrə axışırdılar. 1992-ci il fevral ayının 26-da bizi Xocalıya göndərdilər. Həmin vaxt artıq dünyanı sarsıdan Xocalı faciəsi baş vermişdi. Ermənilər şəhəri yerlə-yeksan etmiş, dinc sakinləri qarlı meşələrdə, dağlarda vəhşicəsinə öldürmüşdülər. Sağ qalanları isə əsir aparmışdılar. Bizi yaralıları və meyitləri çıxarmağa cəlb etdilər. İçəridə yerimizi tutan kimi vertolyot nərilti-gurultu sala-sala havaya qalxdı. Nə qədər təhlükəli, riskli olsa da, erməni işğalçılarının törətdiyi və dünyanı sarsıdan Xocalı soyqırımının baş verdiyi əraziyə eniş edə bildik. Ətrafda gördüklərimizdən dəhşətə gəldik. İki qocanın və bələkdə olan bir körpənin meyitini götürə bildik. Ağdam məscidinə çatanda gördük ki, uşaq tərpənir, sağdır. Körpə bələkdə olduğuna görə şaxta onu tam dondurmamışdı. Bir körpə həyatını xilas etdiyimizə görə çox sevindik. Sonra bizi Ağdam və Ağdərənin müdafiəsinə göndərdilər. Döyüşlər zamanı bir əsgər, bir zabit kimi üzərimə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışırdım.



Söhbət zamanı İntiqam Ağayev rəssamlığa həvəs göstərməyə başladığı illərdən də danışdı: "Rəssam olmaq arzusu ilə yaşayırdım. Daim ürəyimi döyəcləyən arzular sonda əlimdən tutub məni məqsədimə doğru - Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə apardı". Onun sözünü kəsib qeyd edək ki, Qarabağ müharibəsinin iştirakçısı olmuş rəssam bu mövzuda bir-birindən dəyərli əsərlər çəkib: "Mənim üçün müharibə mövzusunda əsər çəkmək ağrılı və əzablıdır. Bu iş mənə çox çətinliklə başa gəlir. Yəqin ki, bu, döyüşlərdə iştirak etdiyimdən, gördüyüm qan-qada və axıtdığım göz yaşlarından irəli gəlir. Görkəmli rəssam Vidadi Nərimanbəyov İkinci Dünya müharibəsi mövzusunda maraqlı və yaddaqalan əsərlər çəkib. Üstündən uzun illər keçməsinə baxmayaraq, onlar indi də öz təsir gücünü saxlayıb. Ümumiyyətlə, dəyərli rəsm əsərləri ömürsüzdür, həmişə maraqla baxılır".



Doğrudan da, İntiqam Ağayevin müharibə mövzusunda çəkdiyi əsərlərə baxanda burada ağrı-acılar açıq və dolğun şəkildə duyulur. Bir anlıq qulaqlarına güllə, top səsləri gəlir. Çünki rəsmlərdə müharibə mənzərələri olduğu kimi - necə varsa, elə o cür də əks olunub. Bu mənzərələri seyr etdikcə düşünürük ki, görəsən, əgər İntiqam Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etməsəydi, işğalçılara qarşı vuruşmasaydı, müharibə mövzusunda əsərlər çəkərdimi? Rəssam bildirdi ki, əgər çəkməli olsaydı da, bu cür canlı alınmazdı: "Çünki tabloya köçürdüyüm bu səhnələrə özüm şahidlik etmişəm, onun ağrı-acılarını yaşamışam. Ona görə də çəkdiklərim təbii, canlı və inandırıcı görünür, baxanların diqqətini çəkir".




Onun sözlərini dinlədikcə düşünürük ki, deməli, müharibə ədəbiyyata da, incəsənətə də yeni mövzular verir, sənət və ədəbiyyat adamlarının qarşısında yeni-yeni yaradıcılıq yolları açır.

Söhbətimizin bu yerində rəssamdan soruşduq ki, soyuq rənglərlə isti tablolar yaratmaq mümkündürmü? İntiqam Ağayev bir az düşündükdən sonra dedi: "Əlbəttə, mümkündür. O baxır rəssama, onun sənətkarlığına. Bilirsinizmi, hər hansı bir əsəri kətan üzərinə köçürməzdən əvvəl o, rəssamın ürəyində yaranır. Belə tabloların ömrü həmişə uzun olur. Neçə illər əvvəl müharibə mövzusunda "İsti qar" adlı bir əsər çəkmişəm. Bax, orada soyuq rənglərdən isti tablo yaratmağa çalışmışam. Tabloya baxanda görürük ki, əsgərlər qarın üstündə ocaq qalayıb isinmək istəyirlər. Buna görə də mən əsərimə "İsti qar" adı vermişəm. İstəmişəm ki, əsgərlərimiz qarın üstündə də olsalar, ürəkləri kimi yerləri də isti olsun. Bu həm əsgərlərin, həm də rəssamın istəyidir. İstəklər üst-üstə düşdüyünə görə elə bilirəm ki, əsər çox real və təsirli alınıb".

Söhbət zamanı onu da öyrəndik ki, İ.Ağayev 2016-cı ildə Azərbaycan Ordusunun uğurla həyata keçirdiyi Aprel döyüşlərini də rənglərin dili ilə ifadə edib: "Sevincimi bu mövzuda çəkdiyim "Hücum" adlı əsərə hopdurdum. Elə buna görə də rəsm çox güclü alınıb. Yəqin ki, ürəyimdən keçənləri rənglərin dili ilə deyə bilmişəm. Ən başlıcası odur ki, "Hücum" tablosunda böyük qələbə ovqatı var".

Rəssamla bir zamanlar sıralarında xidmət etdiyi, vuruşduğu ordunun zabit və əsgərlərinin 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsində göstərdikləri igidilikdən, qəhrəmanlıqdan, Zəfərdən də ətraflı danışdıq. Dedi ki, bir gün də olsun torpaqlarımızın erməni işğalında qaldığını yaddan çıxarmayıb: "Keçmiş döyüşçü kimi bu, məni çox narahat edirdi. İnanırdım ki, gündən-günə gücünü, qüdrətini artıran Azərbaycan Ordusu torpaqlarımızın azadlığı uğrunda başlayacaq müharibədə düşmənə qalib gələcək. Zabit və əsgərlərimiz döyüşlərdə böyük hünər və qəhrəmanlıq göstərəcəklər. Azərbaycan xalqı ordusunun gücünə, qüdrətinə inanırdı. 27 sentyabr 2020-ci ildə səhər lap ertədən torpaqlarımızın azadlığı uğrunda müharibənin başladığını eşitdik. Müharibənin ilk günlərindən qapılarımızı qələbə xəbərləri döydü. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında düşməni darmadağın etməyə başladı. Nəhayət, 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı. Ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Bizim üçün bundan böyük sevinc ola bilməzdi".

Söhbət zamanı İntiqam Ağayevdən işğaldan azad olunandan sonra Qarabağa, bir zamanlar vuruşduğu ərazilərə, sakinlərini qan içində gördüyü Xocalıya gedib-getmədiyini soruşduq: "Azad olunandan bir müddət sonra Qarabağa getdim. Şuşanı, Xankəndini, Əsgəranı və gözüyaşlı, qan içində qoyub gəldiyimiz Xocalını gördüm. Bir zamanlar Qarabağ uğrunda vuruşduğumuz, döyüşdüyümüz günləri xatırladım. İndi Xocalı gözüyaşlı deyildi, sakinləri kimi onun torpağının da, daşının da üzü gülürdü. Rəssam üçün gülən torpağın, danışan daşın görüntülərini çəkmək çox maraqlıdır".

Rəssam daha sonra sözünə davam edərək dedi ki, onun üçün müharibə hələ bitməyib: "İllərcə əvvəl düşmənlə əsgər, zabit kimi, bu günsə rəssam kimi döyüşürəm. Bir vaxtlar silahla dediklərimi indi fırçanın dili ilə ifadə etməyə çalışıram. Deməli, bu gün fırça mənim üçün bir silahdır. Rəsm çəkməklə sanki döyüş yolumu davam etdirirəm".

Sənətkar hansı rənglərlə işləməyə üstünlük verdiyindən də söz açdı. Dedi ki, rənglərin hamısı onun üçün doğmadır: "Amma sarı, qırmızı və narıncı rənglərə sevgim, istəyim daha böyükdür. Sənətkarın özü-özünü tərifləməsinə yaxşı baxmıram. Kimin əsərinin uzunömürlü, yaxud qısaömürlü olacağını zaman göstərir. Necə deyərlər, yaşayarıq, görərik. Mən daha çox şahidi olduğum və ağrılarını yaşadığım anları tabloya köçürürəm. Buna görə də əsərlərimin real həyat səhnələrini əks etdirdiyi gücündə olduğunu düşünürəm". Sonra da əlavə etdi ki, rəsm əsərləri də söz kimi qüvvətli və qüdrətlidir, yenilməzdir, məğlubedilməzdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*





# Ədəbiyyat





● Yaşar Qarayev - 90

## Ədəbiyyatşünaslığın filosofu

**Bu günlər 90 illiyi qeyd olunan akademik Yaşar Qarayev ədəbi fəaliyyətə 1955-ci ildə "Lenin tərbiyəsi uğrunda" və "Azərbaycan gəncləri" qəzetlərində çıxan ilk qeydləri ilə başlamışdır. Bundan sonra müasir ədəbi prosesə, teatr tənqidinə, bədii ədəbiyyatın digər problemlərinə dair elmi-nəzəri məqalələri ilə dövri mətbuatda müntəzəm çıxış etmişdir.**



Milli ictimai fikrimizdə, elmi tədqiqatlarında, yüksək ziyalı ünsiyyətində diqqətçəkən Yaşar Qarayevin məqalə və kitabları "Yaşar", "Q.Yaşar", "Y.Qarayev" imzaları ilə dərc olunmuşdur. Böyük alim bir-birindən dəyərli və poetik tutumlu əsərləri ilə XX əsrin ikinci yarısında Azərbaycan tənqidi, ədəbiyyatşünaslığı və estetik fikrini yeni istiqamətə yönəldə bilmişdir. Başqa sözlə, yarım əsrdən artıq bir vaxtda humanitar fikrin elmi-metodoloji sərhədlərini müəyyənləşdirib və ədəbiyyatşünaslıqda yeni mərhələnin əsasını qoymuşdur. Bu mərhələnin coğrafıyasını, habelə elmi inkişafını özü və çoxsaylı yetirmələri genişləndirərək reallığa çevirmişlər. Odur ki, Yaşar Qarayevin zəngin irsi ilə yaxından tanış olan hər bir tədqiqatçı, ədəbiyyat və sənət adamı ədibi "ədəbiyyat filosofu", "tənqidimizin şairi", "elmimizin möcüzəsi" adlandırmışlar.

Yaşar Qarayev ədəbiyyat, sənət, elm aləminə 50-ci illərdə - ictimai-siyasi mühitin mülayimləşdiyi bir zamanda qədəm qoymuşdu. 1953-1958-ci illər ADU-nun (indi BDU) Filologiya fakültəsində təhsil aldığı qrup Azərbaycan elminə, ədəbiyyatına Tofiq Hacıyev, Hüseyn Kürdoğlu, Ağacavad Əlizadə, Şamil Salmanov, Arif Səfiyev, Həmid Abbas, İbrahim Göyçaylı, Firidun Ağayev, Cəfər Cəfərov, Vaqif Hüseynov kimi adlar bəxş etmişdir.

Hələ tələbəlik illərindən Azərbaycan dramaturgiyasının tarixi və müasir problemlərinə həsr edilən məqalələri ilə tanınan Yaşar Qarayev ədəbi prosesə 60-cı illərdə həm də teatr tənqidçisi kimi daxil olmuşdur. Onun Azərbaycan milli teatrının ən görkəmli tamaşaları haqqında dövri mətbuatda çıxan məqalələri oxucular və mütəxəssislər tərəfindən maraqla qarşılanırdı. Bununla da ədib Azərbaycanda XX əsrin ən görkəmli teatr tənqidçisi və dramaturgiya mütəxəssisi kimi tanınmağa başlamışdır.

Yaşar Qarayevin "Realizm: sənət və həqiqət" əsəri XX əsr Azərbaycan ədəbi-nəzəri fikrinin ən sanballı nümunələrindən biridir. Bu əsər Azərbaycan ədəbiyyatşünaslığında yeni bir mərhələni müəyyənləşdirməklə sübut etmişdir ki, bədii üsulun bütöv estetik kateqoriya kimi hərtərəfli nəzəri şərhi regional və milli bədii düşüncənin uğurlarını vəhdətdə, qarşılıqlı əlaqədə götürməyi tələb edir. O, Azərbaycan realizminin dünya ədəbiyyatında realizmin inkişaf qanunauyğunluqları ilə əlaqəsini aydınlaşdırmış, onun rus və Avropa realist sənəti kontekstində təhlilini aparmışdır.

Tənqid tariximizi ardıcıl araşdıran, ədəbiyyatşünaslığımızın və tənqidimizin nəzəri-metodoloji inkişaf mərhələlərini dərindən öyrənən, onun ümumi problemləri ilə yanaşı, böyük simaları haqqında monoqrafiya və ya portret məqalələr yazan Yaşar Qarayevdə parlaq tənqidçilik istedadı var idi. Onun estetik zövqü, ədəbi faktı, nümunəni bədii fikir tarixi fonunda qiymətləndirmək istedadı heyrət doğurur. Ədəbiyyatımızın elə sanballı nümunəsi yoxdur ki, Yaşar Qarayevin diqqətindən kənarda qalsın. Onun tənqidçi-estetik tipi adətən ideoloq tipinə üstün gəlirdi. Milli mənəviyyat tarixinə yanaşmada tarixin vətəndaşlıq tutumu, onun müasir siyasi-ictimai mənası Yaşar müəllim üçün həmişə önəmli idi. O, 90-cı illərdə ədəbi-bədii dəyərlərimizi siyasi müstəqilliyin kontekstində götürürdü və metodoloji imkanları çərçivəsində ümumiləşdirmələr aparırdı.

Yaşar Qarayevin M.F.Axundovu tədqiq etməsi onunla başlayan yeni dövr ədəbiyyat, dramaturgiya və nəsrin özəlliklərini doğru istiqamətdə şərh etməyə şərait yaradırdı. "Kəmalüddövlə məktubları", "Aldanmış kəvakib" kimi əsərləri təhlil edən, bu mövzularda dissertantlarına mövzular seçən filoloq XX əsr Azərbaycan nəsrinin nümunələrini sırf estetik planda təhlil edirdi. Onun, məsələn, Yusif Səmədoğlunun "Qətl günü" romanı haqqında kiçikhəcmli məqaləsi də bu baxımdan maraq doğurur. "Qətl günü" romanı nə üçün məhz o dövrdə yarandı? Poetik sistemi etibarilə son dərəcə orijinal olan bu əsər Azərbaycan nəsrinə hansı mesajın verilməsi ilə əlamətdar idi? Bütün bu və digər sualları araşdırmanın mərkəzinə gətirən müəllif bədii mətndəki detalları, obraz və onların xassəsini dəqiq müəyyənləşdirir və gələcək araşdırmaçılar üçün də istiqamətləri göstərirdi.

Yaşar müəllim 90-cı illərdə ədəbiyyatşünaslığımızda iki məsələni xüsusi qabartmışdır. Uzun illər yasaq edilmiş ortaq türk, müsəlman mənəvi dəyərlərini, repressiya və mühacirət ədəbiyyatını ədəbi-ictimai dövriyyəyə gətirməkdə onun elm təşkilatçısı kimi müstəsna xidmətləri olmuşdur. Y.Qarayevin "Dədə Qorqud-1300", Füzulinin 500 illik yubiley tədbirləri, mühacirət ədəbiyyatı simpoziumu çərçivəsində fəaliyyəti həm ədəbi-elmi fikri zənginləşdirməyə, həm də müstəqil Azərbaycanı dünyada tanıtmağa, sevdirməyə xidmət edirdi. Yaşar müəllim "Tarix: yaxından və uzaqdan" kitabında mövcud tədqiqatlarını yeni metodoloji axtarışlar kontekstində birləşdirir, ortaq islam və türk dəyərləri, onların şərtləndirdiyi bədii-estetik amillər fonunda ədəbiyyat tarixinə nəzər salırdı. XX əsr ədəbiyyatşünaslığında mövcud olan nəzəri istiqamətləri milli ədəbiyyatşünaslığa gətirən, onu milli ədəbi təcrübə ilə uyğunlaşdıran və fərqli cəhətlərini ayırd edən Yaşar Qarayev ədəbi fikri dövrləşdirmədə dominant olan formasiyalar nəzəriyyəsinin böhran keçirdiyi, iflasa uğradığı məqamda milli ədəbiyyat tarixi konsepsiyası ətrafında düşünən, orijinal tezislərini irəli sürən müəlliflərdən idi. XX əsr ədəbi-nəzəri fikrimizin yekunu kimi yaranmış bu əsər ümumən humanitar fikrin ciddi metodoloji problemlər qarşısında dayandığını ortaya qoymuşdur.

Ədəbiyyatşünaslıq elminin əbədiyaşar filosof alimi Yaşar müəllim çox müdrik, mədəni, təmkinli, xeyirxah insan idi. Azərbaycan ədəbiyyatını ən qədim dövrdən çağdaş günümüzədək bütün mərhələlərini mükəmməl bilən Y.Qarayev folklorumuzu çox sevirdi. Onun tənqidi - poetik tənqiddir. Başqa sözlə, poetik tənqidimizin banisi Yaşar Qarayev idi. Nitqi mükəmməl, rəvan və obrazlı olardı. Cümlələrində daxili qafiyə, bənzətmə bolluq təşkil edərdi. Ən sərt fikri cazibədar, metaforik libasda təqdim etməyi bacarırdı.

Xatırladaq ki, 1976-1991-ci illərdə Yaşar Qarayev Azərbaycan Yazıçılar İttifaqının Tənqid və Ədəbiyyatşünaslıq Şurasının rəhbəri olmuş, birliyin tənqid və ədəbiyyatşünaslıq üzrə katibi işləmişdir. Ali Attestasiya Komissiyasının, Azərbaycan Milli Yaradıcılıq Akademiyası Rəyasət Heyətinin üzvü və humanitar bölməsinin həmsədri seçilmişdir. Həmin illər Azərbaycanda daimi fəaliyyətdə olan Şəhriyar Konqresi komitəsinin sədri, "Ədəbi proses" adlı illik elmi-tənqidi məcmuənin müəlliflərindən biri və məsul redaktoru olmuşdur. M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun hazırladığı doqquzcildlik dünya ədəbiyyatı tarixi, "Çoxmillətli sovet ədəbiyyatı tarixi (inqilabaqədərki dövr)" və Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı yeddicildlik "Azərbaycan ədəbiyyatı tarixi" monumental əsərlərinin müəlliflərindən biri idi.

Yaşar Qarayev 27 yaşında namizədlik, 43 yaşında doktorluq müdafiə etmiş, 44 yaşında Dövlət mükafatı almış, 46 yaşında Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Onun rəhbərliyi ilə İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Rəhim Əliyev, Şirindil Alışanlı, Nizaməddin Şəmsizadə, Məhərrəm Qasımlı, Əziz Ələkbərli, Aydın Dadaşov, Tahirə Məmməd, Məryəm Əlizadə, Rüstəm Kamal, İsrafil İsrafilov, İsmayıl Vəliyev, İlham Rəhimli, Rahid Ulusel və başqa görkəmli alimlər yetişmişdir.

Azərbaycan ədəbiyyatşünaslığının inkişafında əvəzsiz xidmətləri olan Yaşar Qarayev 2002-ci il avqustun 25-də 66 yaşında vəfat etmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Ədəbi simalar

## Azərbaycanın taleyini yaşadı

### Çünki həyatı da ikiyə bölünmüşdü

**Uşaqlıq illəri yalnız zaman deyil, həm də məkan baxımından çox-çox uzaqlarda qalmışdı. Dünyaya göz açdığı yurda, isti ata ocağına həsrət idi. Könlü bitmək bilməyən ayrılığın qubar yeri olmuşdu. Bircə udum havası, bircə içim suyu üçün belə qəribsədiyi ata yurduna boylana-boylana qalmışdı.**



Çoxları kimi onun da nisgilli baxışları tez-tez Arazın o tayını arayırdı, qəlbi hicran ağrısı ilə sızlayırdı. Ancaq dərd ortaqlarının çoxundan fərqli olaraq, ayrılıq dərdini, həsrətini misralara çevirirdi Hökumə Bülluri:

*Mən də bir şairəm, sinəsi dağlı,*
*Ayrılıq nəfəsli, hicran soraqlı.*
*Vətənin qapısı üzümə bağlı,*
*Hər axşam bu dərddən alışır sinəm,*
*Vətən həsrətliyəm, el həsrətliyəm.*

O, bir əsr öncə - 1926-cı il martın 3-də Zəncan şəhərində dəmirçi ailəsində dünyaya gəlib. Orta təhsilini 1933-1943-cü illərdə Zəncanda "Azəri" qızlar məktəbində alıb. Məktəbi bitirdikdən sonra elə həmin təhsil ocağında dərs deyib. Poeziyaya sevgisi utancaq bənövşə kimi könlündən erkən boy verib, ruhunu pərvazlandırıb.

Bəlkə də ömrü elə beləcə davam edə bilərdi. Müəllimlik fəaliyyətini davam etdirər, balaca həmşəhərlilərinə dərs deyər, bilik öyrədərdi. Gənc Hökumə xanım həm də yurdunun istedadlı şair qızı kimi tanınar, dövri mətbuatda dərc olunan şeirləri ilə sevilərdi. Ancaq yurddaşlarının azadlıq uğrunda mücadiləsindən xalqın bu məğrur, vətənsevər qızı da kənarda qalmadı. Hökumə Bülluri qəlbinin hökmü ilə gənc yaşlarında Azərbaycan Demokrat Firqəsinə üzv olub və "21 Azər" hərəkatına qoşulub.

O, ictimai-siyasi fəaliyyətə İkinci Dünya müharibəsi illərində başlayıb. O zaman ki, sovet ordusu Cənubi Azərbaycana getmişdi. Hökumə Bülluri Azərbaycan Demokrat Partiyası Zəncan Vilayət Komitəsinin təbliğat şöbəsi müdirinin müavini, Mədəniyyət evi kitabxanasının müdiri vəzifələrində işləyib.

İlk şeir və məqalələri 1945-ci ildə "Azər" və "Vətən yolunda" qəzetlərində dərc edilib. 1946-cı ilin martında milli-demokratik hərəkatda iştirak etdiyi üçün "21 Azər" medalı ilə təltif olunub.

Arzularının coşub-çağlayan vədəsində onun və məsləkdaşlarının başlarının üstünü qara buludlar alıb. 1946-cı il dekabrın 12-si həyatlarının ən ağır günü olub. Həmin gün Azərbaycan Milli Hökuməti xarici imperializmin birbaşa siyasi, maddi və hərbi dəstəyi ilə İran şahlıq rejimi tərəfindən devrilib, sovet qoşunları Cənubi Azərbaycandan çıxarılıb. Milli qüvvələr dəhşətli faciələrlə üzləşib, minlərlə nümayəndəsi dar ağacına çəkilib, güllələnib və ya sürgünə göndərilib. Amansızlıqla verilən cəzalar bununla da bitməyib. Mütərəqqi fikirli, demokratik ruhlu azərbaycanlılar təqib olunublar. Təqiblər səbəbindən mühacirət etmək məcburiyyətində qalıblar. İyirmi yaşlı Hökumə Bülluri də onların arasındaydı. Bakıya üz tutan Hökumə xanımın Cənubi Azərbaycanından nigaran qəlbi o zamandan heç zaman dinclik tapmayıb.

O, Bakıda ali təhsil almaq arzusunu gerçəkləşdirib. 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olub. 1952-ci ildə universitet təhsilini başa vurub. 1956-cı ildə Bakı Ali Partiya məktəbini bitirib.

Hökumə Bülluri Bakıda da bədii yaradıcılığını davam etdirib. 1958-ci il oktyabrın 14-də Azərbaycan Yazıçılar İttifaqının - Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul edilib. Şeirləri dövri mətbuatda müntəzəm dərc olunub.

1952-1954-cü illərdə "Azərnəşr"də Bədii ədəbiyyat şöbəsinin redaktoru işləyib. İctimai-siyasi fəaliyyətini nəzərə alıb onu Azərbaycan Demokrat Partiyası Mərkəzi Komitəsinin orqanı olan "Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsinə təyin ediblər. 1956-1960-cı illərdə orada çalışıb. 1963-cü ildə Moskvada Sov.İKP yanında İctimai Elmlər Akademiyasını bitirib. Hökumə Bülluri təhsil illərində "İran Azərbaycanının realist-demokratik ədəbiyyatı" mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsini alıb. Bir il sonra - 1964-cü ildə Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda baş elmi işçi vəzifəsinə dəvət olunub. Ömrünün sonuna qədər orada işləyib.

Hökumə Billuri məhsuldar şair və yorulmaz alim kimi tanınıb. Onun "Mənim arzum" (1949), "Ölməz qəhrəman" (1950), "Həyat yollarında" (1951), "Mübarizə illərində" (1954), "Şeirlər", (1954), "Şairin yadigarı" (1957), "Səhər günəşi" (1964), "Səndən uzaqlarda" (1961), "İstərəm", "Şeirlər" (1966), "Necə unudum" (1974), "Çinar gözləyir məni" (1976), "Apar məni o yerlərə" (1981), "Bir də bahar gəlsə" (1984), "Seçilmiş əsərləri" (1986), "Dünya belə dünyadır" (1989), "Nə qəribə dünya imiş" (1997), "Seçilmiş əsərləri" (2005) şeir kitabları, "1940-1960: İran Azərbaycanında realist-demokratik poeziya" (1972) və "Məhəmmədhüseyn Şəhriyar" (1984) monoqrafiyaları işıq üzü görüb. Şeirləri Yunna Morits və Rimma Kazakovanın tərcüməsində Moskvada çapdan çıxıb. O, özü də tərcüməçiliklə məşğul olub. Hökumə Bülluri Məhəmmədhüseyn Şəhriyarın farsca şeirlərini Azərbaycan dilinə, Cəfər Cabbarlı, Səməd Vurğun, Mirvarid Dilbazi və Nəbi Xəzrinin şeirlərini fars dilinə tərcümə edib.

1984-cü ildə Əməkdar incəsənət xadimi, 1998-ci ildə Xalq şairi fəxri adına layiq görülüb.

*Sinəmə ağır bir yükdü ayrılıq,*
*Belimi yay kimi bükdü ayrılıq...*
*Həyat gözlərimdə sönmədən qabaq,*
*Sizdən bir diləyim olacaq ancaq.*
*Tufana, küləyə döndərin məni,*
*Göndərin vətənə, göndərin məni!*

deyən şairin arzusu ürəyində qalıb. Son nəfəsinədək "Vətən" deyib, Cənubi Azərbaycanın xiffətini çəkib. Bu xiffətlə də 2000-ci il noyabrın 22-də Bakıda dünyasını dəyişib. Vəfatından sonra da əsərləri ikiyə bölünmüş Vətənin bitməyən harayına çevrilib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Görkəmli şair Əli Kərimin 95 illiyi münasibətilə elektron məlumat bazası hazırlanıb

**Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, şair və tərcüməçi Əli Kərimin anadan olmasının 95 illiyi münasibətilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası tərəfindən şairin həyat və yaradıcılığından bəhs edən zəngin və çoxşaxəli elektron məlumat bazası hazırlanıb.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, elektron məlumat bazası şair Əli Kərimin həyat və yaradıcılığının daha geniş auditoriyaya çatdırılması, onun ədəbi irsinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə yaradılıb.

Hazırlanan elektron baza Əli Kərimin həyat yolunu və yaradıcılıq mərhələlərini əhatə edən geniş məlumat toplusudur. Burada şairin həyatının mühüm məqamlarını əks etdirən xronologiya, onun zəngin ədəbi irsini təqdim edən "Həyat və yaradıcılıq" bölməsi yer alır. Elektron bazada filologiya elmləri doktoru Paşa Əlioğlunun "Əli Kərim poeziyasında XX əsrin böyük elmi kəşflərinin əksi", Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Vaqif Yusiflinin "Zamana ram olmayan poeziya - Əli Kərim - 90" və şair, yazıçı Məmməd İsmayılın "Şeirin zirvəsində və əbədi səfərdə..." adlı məqalələrinin tam mətni təqdim edilir.

İstifadəçilər elektron baza vasitəsilə şairin dərin məna kəsb edən hikmətli sözləri ilə yanaşı, bir sıra görkəmli şəxslərin onun haqqında söylədikləri dəyərli fikirləri də öyrənə bilərlər.




Elektron bazada Əli Kərimin müəllifi olduğu kitablar, müxtəlif dövrlərdə nəşr olunmuş dövri mətbuat nümunələri, eləcə də onun həyata keçirdiyi tərcümələr sistemli şəkildə təqdim edilir. Bundan əlavə, şairin sözlərinə bəstələnmiş mahnılar və musiqi notları da ayrıca bölmədə yer alaraq onun yaradıcılığının musiqi ilə vəhdətini nümayiş etdirir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda şair haqqında qələmə alınmış kitablar və məqalələr də yer alır.

Eyni zamanda elektron məlumat bazasında şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülmüş işlər, "Filmoqrafiya", "Televiziya verilişləri", "Foto və video qalereya", eləcə də "Virtual sərgi" bölmələri də öz əksini tapır.

"Şair, tərcüməçi Əli Kərimli 95" adlı elektron məlumat bazası kitabxananın rəsmi saytında yerləşdirilib.

## Parisdə xalça sərgisi açılıb

**Fransada Azərbaycan səfirliyinin dəstəyi, "Arts Council Azerbaijan" və Azərbaycanın Dostları Assosiasiyasının birgə təşkilatçılığı ilə səfirliyimizin Mədəniyyət Mərkəzində Novruz bayramı münasibətilə "İkinci həyat" layihəsi çərçivəsində "Azərbaycan xalçalarında bahar təravəti" adlı xalça sərgisi açılıb.**



Tədbirdə Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jerom Beqen, Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva və "İkinci həyat" layihəsinin yaradıcısı Sona Quliyeva çıxış ediblər. Natiqlər milli kimlik nişanəmiz Novruz bayramı haqqında məlumat veriblər. Bildirilib ki, Novruz Azərbaycan xalqının sağlam təfəkkürünü, mənəvi-əxlaqi baxışlarını, tarixin bütün dövrlərində yeniliklərə, inkişafa açıqlığını, keçmişimizi, bu günümüzü və gələcəyimizi əks etdirir. Novruz sadə bir el bayramı deyil, minilliklər ərzində cilalanmış, ulularımızın düşüncələrindən, dünyagörüşündən gələn, milli varlığımızın bir çox cəhətini özündə ehtiva edən bütöv bir dəyərlər sistemidir.

Novruz bayramının milli dövlətçilik ənənələrimizdə də müstəsna yeri və rolu var. Ümummilli Lider Heydər Əliyev Novruz bayramına milli ideologiyamızın təməl sütunlarından biri kimi yanaşırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu bayrama böyük dəyər verir, xalqımızın birliyinin, bütövlüyünün, mənəvi kamilliyinin, mədəniyyətimizin zənginliyinin və unikallığının əsas rəmzlərindən biri kimi onun qorunması, təbliği istiqamətində dövlət səviyyəsində sistemli tədbirlər həyata keçirilir.

Tədbirdə "İkinci həyat" layihəsi haqqında da məlumat verilib.

## Azərbaycan XXXIII Minsk Beynəlxalq Kitab Sərgisində təmsil olunur

**XXXIII Minsk Beynəlxalq Kitab Sərgisində Azərbaycan öz milli kitab stendi ilə iştirak edir.**

Mədəniyyət Nazirliyindən bildirilib ki, sərgi çərçivəsində təşkil olunan təqdimat tədbirində M.Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan dili və Mədəniyyəti Mərkəzinin direktoru Fuad İbrahimov çıxış edərək ölkəmizin zəngin ədəbi irsi, mədəniyyəti və kitab sənayesinin inkişafı barədə məlumat verib.

Təqdimat zamanı Azərbaycan haqqında ətraflı videoçarx nümayiş olunub, həmçinin milli mədəniyyətimizi əks etdirən bir neçə rəqs nümunəsi təqdim edilib.

Sərgi martın 22-dək davam edəcək.




Qeyd edək ki, beynəlxalq sərgi müxtəlif ölkələrin nəşriyyatlarını, müəlliflərini və oxucularını bir araya gətirərək mədəni mübadiləyə və ədəbiyyatın təşviqinə mühüm töhfə verir.

# Novruz bərəkətli xeyirxahlıq ünvanı

**Novruz xalqımızın mənəvi dünyasını, milli kimliyini və əsrlərdən süzülüb gələn ənənələrini özündə yaşadan ən qədim və sevilən bayramlardan biridir. Bu bayram təkcə təbiətin oyanışı deyil, həm də insanların qəlbində yenilənmə yaradır, ümid və birlik hisslərinin canlanmasını simvolizə edir. Yazın ilk nəfəsi ilə birlikdə gələn Novruz insanları bir araya gətirir, onları bir-birinə daha yaxın olmağa sövq edir. Bu baxımdan Bakıda təşkil olunan bayram yarmarkaları artıq ənənəyə çevrilərək Novruzun ruhunu daha canlı və dərindən hiss etdirir.**














Ölkəmizin dörd bir tərəfində qurulan, Novruzun ruhunu, baharın təravətini və paylaşmağın gözəlliyini özündə birləşdirən yarmarkalar rəngarəng dekorasiyalar, bayram atributları ilə həm sakinlərin, həm də qonaqların marağına səbəb olur. Baharın gəlişini təcəssüm etdirən yamyaşıl səməni, əlvan boyanmış yumurtalar, ənənəvi personajlar və bəzədilmiş xonçalar insanlarda nostalji hisslər oyadır, uşaqlıq xatirələrini yenidən canlandırır.

Paytaxtımızın ən gur məkanlarından birində - Fəvvarələr meydanında təşkil edilən "Torpaq Əlimdə, Bahar Ürəyimdə" yarmarkası da bayram ab-havası yaradır, baharın gəlişini müjdələyir. Yarmarkada olan bayram atmosferi böyükdən-kiçiyə hər kəsi öz sehrinə salır. Əraziyə daxil olan kimi musiqi sədaları, ziyarətçilərin gülüşləri, uşaqların şən səsləri insanı başqa bir aləmə aparır. Sanki bu məkanda gündəlik həyatın qayğıları unudulur, yerini sevinc və xoş əhvali-ruhiyyə tutur.

Yarmarkanın əsas məqsədi yalnız əyləncə yaratmaq deyil. Bu layihə, eyni zamanda xeyriyyə xarakteri daşıyır və cəmiyyətin həssas təbəqəsinə dəstək göstərmək üçün mühüm rol oynayır. 2019-cu ildən etibarən "Nərgiz" fondu tərəfindən həyata keçirilən bu nəcib missiyalı yarmarkadan toplanılan vəsait müxtəlif sağlamlıq problemləri ilə mübarizə aparan uşaqların müalicəsinə yönəldilir. Beləliklə, yarmarkaya gələn hər bir insan, sadəcə, istirahət etmir, həm də xeyirxah bir işə töhfə verir. Bu isə bayramın əsas fəlsəfəsi - paylaşmaq və yardım etmək anlayışına tam uyğun gəlir.

Yarmarkada qurulan köşklər müxtəlifliyi ilə seçilir. Hər köşk özünəməxsus üslubda bəzədilib və ziyarətçilərə fərqli məhsullar təqdim edir. Burada həm milli mətbəxin ləziz təamlarını, həm də müxtəlif ölkələrin dadlı məhsullarını tapmaq mümkündür. Qonaqlar isti şirniyyatların qoxusunu hiss etdikcə sanki uşaqlıq illərinə qayıdırlar. Şəkərbura, paxlava, qoğal kimi ənənəvi təamlar xarici qonaqlarda xüsusilə böyük maraq doğurur.

"Torpaq Əlimdə, Bahar Ürəyimdə"də gəzinti zamanı müxtəlif yaş qruplarından olan insanların bir arada əyləndiklərini görmək mümkündür. Məkanda uşaqlar üçün xüsusi oyun zonaları yaradılıb. Onlar burada müxtəlif yarışlarda iştirak edir, əyləncəli oyunlar oynayır və bir-biri ilə rəqabət apararaq sevinc dolu anlar yaşayırlar. Böyüklər isə ya alış-veriş edir, ya da dostları ilə birlikdə çay süfrəsi arxasında söhbətləşirlər.

Ziyarətçilərdən biri olan gənc ana Aysel xanım qeyd edir ki, bu məkan onun üçün artıq ənənəvi istirahət ünvanına çevrilib: "Hər il bayram ərəfəsində mütləq bura gəlirik. Uşaqlar burada çox xoşbəxt olurlar. Onların sevinci bizim üçün ən böyük hədiyyədir. Üstəlik, burada görülən işlər səliqəlidir. İnsan özünü çox rahat hiss edir".

Yarmarkada turistlərin də sayı az deyil. Müxtəlif ölkələrdən gələn qonaqlar burada Azərbaycanın mədəniyyəti ilə daha yaxından tanış olmaq imkanı əldə edirlər. Xaricdən gələn bir ziyarətçi ilə söhbətimizdə bildirir ki, bu bayram onun üçün tamamilə yeni təcrübədir: "Mən əvvəllər Novruz bayramı haqqında yalnız qısa məlumatlara sahib idim. Amma burada gördüklərim gözləntilərimi xeyli üstələdi. İnsanların mehribanlığı, mühitin rəngarəngliyi məni çox təsirləndirdi. Bu bayramın ruhu həqiqətən fərqlidir".

Yarmarkada diqqətçəkən məqamlardan biri də insanların bir-birinə olan münasibətləridir. Satıcılar müştəriləri güləruzlə qarşılayır, hər kəslə səmimi davranırlar. Bu da ümumi atmosferə xüsusi bir istilik qatır. Buraya gələn hər kəs özünü sanki böyük bir ailənin üzvü kimi hiss edir.

Ərazidə yaradılan fotozonalar da ziyarətçilərin marağına səbəb olur. Ziyarətçilər burada xatirə şəkilləri çəkdirir, bayramın gözəl anlarını yaddaşlarında əbədiləşdirirlər. Xüsusilə uşaqlar üçün hazırlanmış dekorativ guşələr onların sevincinə səbəb olur. Azyaşlılar rəngli dekorasiyalar fonunda şəkil çəkdirərək bu günü daha da unudulmaz edirlər. "Torpaq Əlimdə, Bahar Ürəyimdə"nin təşkilində yeniliklər də nəzərə çarpır. Bu il təqdim olunan bəzi tematik guşələr xüsusilə gənclərin marağına səbəb olur. Müasir elementlərin milli ənənələrlə vəhdəti tədbirə fərqli bir çalar qatır. Bu isə göstərir ki, Novruz yalnız keçmişin mirası deyil, eyni zamanda bu günün və gələcəyin də bir parçasıdır.

Havanın mülayim keçməsi yarmarkaya olan marağı daha da artırır. Günəşli hava, yüngül meh və bayram əhvali-ruhiyyəsi bir araya gələrək unudulmaz bir atmosfer yaradır. Yaşlı nəslin nümayəndələri də bu məkanda özlərinə yer tapırlar. Onlar uşaqların sevinclərini izləyərək öz gənclik illərini xatırlayır, bayramın dəyişməyən dəyərlərini bir daha dərk edirlər. Ziyarətçi Gülzar xanım deyir: "Bizim vaxtımızda bu cür geniş tədbirlər olmasa da, bayramın ruhu həmişə eyni olub. İndi isə bu ənənələrin belə gözəl şəkildə yaşadıldığını görmək sevindiricidir".

Yarmarkanın ən çox diqqətçəkən tərəflərindən biri də burada yaranan birlik hissidir. Fərqli yaşda, fərqli düşüncədə olan insanlar bir məkanda toplaşaraq eyni sevinci paylaşırlar. Bu isə cəmiyyətin birliyini və həmrəyliyini daha da möhkəmləndirir. Bayram günlərində belə tədbirlərin təşkili insanların sosial həyatına da müsbət təsir göstərir. İnsanlar daha çox ünsiyyət qurur, yeni dostluqlar yaranır, münasibətlər möhkəmlənir. Bu baxımdan yarmarka yalnız əyləncə məkanı deyil, həm də sosial bağları gücləndirən bir platformadır.

Tədbirin davam etdiyi müddətdə burada hər gün müxtəlif proqramlar təşkil olunur. Musiqi çıxışları, rəqs nömrələri və digər əyləncəli fəaliyyətlər ziyarətçilərin maraqlarnı daim canlı saxlayır. Hər gün fərqli bir ab-hava yarandığı üçün insanlar yarmarkaya təkrar-təkrar gəlmək istəyirlər.

Bu cür tədbirlərin keçirilməsi həm də ölkənin turizm potensialının artmasına töhfə verir. Xaricdən gələn qonaqlar milli mədəniyyətimizlə tanış olur, ölkəmiz haqqında xoş təəssüratlarla geri qayıdırlar. Bu isə Azərbaycanın dünyada tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir. Elə ona görə də "Torpaq Əlimdə, Bahar Ürəyimdə" təkcə bayram tədbiri deyil, həm də insanları birləşdirən, sevinc və ümid bəxş edən xüsusi bir məkandır. Burada hər kəs özünə uyğun bir sevinc tapır - uşaqlar oyunlarda, böyüklər xatirələrdə, turistlər isə yeni təcrübələrdə.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Qarabağ və Şərqi Zəngəzurun dirçəliş modeli
İşğaldan azad edilən ərazilər dünya miqyasında analoqu olmayan bərpa və quruculuq mərhələsini yaşayır

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Koçaryan köhnə ssenari ilə Ermənistanı hara aparır

**Cənubi Qafqazda formalaşmaqda olan yeni geosiyasi reallıqlar fonunda Ermənistanın daxilində baş verən siyasi proseslər getdikcə daha mürəkkəb və ziddiyyətli xarakter alır. Xüsusilə ölkənin keçmiş prezidenti Robert Koçaryanın yenidən hakimiyyətə qayıtmaq iddiası ilə siyasi səhnədə fəallaşması təkcə daxili mübarizəni kəskinləşdirmir, eyni zamanda region üçün potensial risklər yaradır.**



R.Koçaryanın siyasi bioqrafiyası və keçmiş fəaliyyəti onun yenidən hakimiyyətə gəlməsi ehtimalını ciddi narahatlıq doğuran amilə çevirir. Qarabağ münaqişəsinin ən qanlı mərhələlərində fəallıq göstərmiş, separatçı silahlı dəstələrə rəhbərlik etmiş bu siyasi cəllad minlərlə günahsız insanın həyatına son qoyan hadisələrlə assosiasiya olunur. Xüsusilə Xocalı soyqırımı kimi faciələrin fonunda onun adı region xalqlarının yaddaşında ağır iz buraxmış simvola çevrilib.

Digər tərəfdən, 1999-cu ildə Ermənistan parlamentində baş verən və ölkənin siyasi elitasını hədəf alan qanlı terror aktı, eləcə də 2008-ci ilin mart hadisələri R.Koçaryanın hakimiyyət dövrünün ən qaranlıq səhifələrindəndir. Həmin dövrdə seçki nəticələrinə etiraz edən dinc nümayişçilərə qarşı güc tətbiqi, onlarca insanın həyatını itirməsi və sonradan bu hadisələrlə bağlı onun məsuliyyətə cəlb olunması cəmiyyət daxilində ciddi etimadsızlıq yaradıb.

Koçaryanın son çıxışlarında sülh ritorikasına üstünlük verməsi isə bir çox ekspert tərəfindən daha çox taktiki addım kimi qiymətləndirilir. O, seçkiqabağı mərhələdə radikal və reallıqdan uzaq şüarlardan kənarda qalmağa çalışaraq cəmiyyətin daha geniş təbəqəsini cəlb etməyə cəhd göstərir. Lakin onun əvvəlki siyasəti və ritorikası göstərir ki, bu mövqe uzunmüddətli və sabit xarakter daşımaya bilər.

Onun hakimiyyəti dövründə Ermənistanın iqtisadi modelinin dayanıqlı inkişaf üzərində deyil, daha çox qapalı və asılı strukturlar üzərində qurulması bu gün də ölkənin qarşısında ciddi problemlər yaradır. Strateji müəssisələrin xarici borclar müqabilində Rusiyaya verilməsi iqtisadi müstəqilliyi zəiflətməklə yanaşı, ölkənin siyasi qərarvermə imkanlarını da məhdudlaşdırmışdı. Bu reallıq fonunda R.Koçaryanın yenidən "etibarlı müttəfiq" tezisini ön plana çıxarması əslində Ermənistanın yenidən eyni asılılıq modelinə sürüklənməsi riskini artırır.

2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsindən sonra Ermənistan cəmiyyətində ciddi siyasi və psixoloji transformasiya baş verdi. Müharibənin nəticələri ölkədə köhnə siyasi kursun iflasa uğradığını açıq şəkildə göstərdi. Buna baxmayaraq, Koçaryan kimi fiqurların yenidən fəallaşması göstərir ki, keçmiş siyasi elita mövcud reallıqlarla barışmaq niyyətində deyil.

Müharibədən sonrakı dövrdə Koçaryanın fəaliyyətinə diqqət yetirsək, görərik ki, o, bir tərəfdən siyasi ritorikasını yumşaldaraq sülh tərəfdarı kimi çıxış etməyə çalışsa da, digər tərəfdən ölkə daxilində gərginliyi artıran proseslərdə dolayı iştirak edən əsas fiqurlardan biri kimi qiymətləndirilir. Ermənistan daxilində bəzi dini qrupların və keşişlərin küçə aksiyalarında fəallaşması, siyasi tələblərlə çıxış etmələri və hakimiyyətə qarşı sərt mövqe tutmaları heç də təsadüfi xarakter daşımır. Bu proseslərin arxasında dayanan qüvvələr arasında R.Koçaryanın adı daha çox hallanır.

Bir məqama xüsusi diqqət yetirək: dövlət idarəçiliyində dünyəvi prinsiplərin zəiflədilməsi və dini institutların siyasi alətə çevrilməsi cəmiyyət daxilində parçalanmanı daha da dərinləşdirə bilər. Koçaryanın bu cür proseslərə dəstək verməsi isə onun hakimiyyətə qayıdış strategiyasının yalnız siyasi deyil, eyni zamanda ideoloji və psixoloji təsir elementlərini də əhatə etdiyini göstərir.

Digər mühüm məqam isə "Qarabağ kartı"ndan istifadə məsələsidir. Ermənistanın keçmiş siyasi elitası uzun illər bu mövzunu yalnız milli ideologiya kimi deyil, həm də daxili siyasi təsir vasitəsi və iqtisadi resursların bölüşdürülməsi aləti kimi istifadə edib. Bu kontekstdə Nikol Paşinyan hökuməti tərəfindən səsləndirilən ittihamlar, yəni keçmiş hakimiyyət nümayəndələrinin Qarabağ məsələsindən şəxsi maraqlar, var-dövlət toplamaq və siyasi mövqelərini qorumaq üçün istifadə etmələri, sözsüz ki, müəyyən ictimai əsaslara malikdir.

Bu yanaşma Ermənistan cəmiyyətində artıq ciddi tənqid olunur. Çünki müharibədən sonra yaranmış yeni reallıqlar göstərdi ki, emosional və revanşist siyasət ölkəni uçuruma aparır və bununla daha böyük risklər yaradır. R.Koçaryanın son çıxışlarında səsləndirdiyi fikirlər də bu ziddiyyətli xəttin davamı kimi qiymətləndirilə bilər. O, təhlükəsizliyin əsas prioritet olduğunu vurğulayaraq "döyüşə hazır ordu, güclü lider və etibarlı müttəfiq" modelini təklif edir. Lakin bu yanaşma müasir beynəlxalq münasibətlər sistemində artıq effektiv hesab olunmur.

Onun hər il 45 min yeni iş yeri yaradılması ilə bağlı vədi də iqtisadi reallıqlardan uzaq görünür. Ermənistanın mövcud iqtisadi vəziyyəti - zəif sənaye bazası, investisiya çatışmazlığı və regional layihələrdən kənarda qalması belə ambisiyalı planların həyata keçirilməsini demək olar ki, mümkünsüz edir. Real inkişaf yolu isə regionda kommunikasiyaların açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi və Azərbaycanla münasibətlərin normallaşdırılmasından keçir. Bu istiqamətdə atılan addımlar Ermənistan üçün yeni iqtisadi imkanlar yarada bilər.

R.Koçaryanın sülhlə bağlı mövqeyi isə açıq şəkildə ziddiyyətlidir. Bir tərəfdən sülhə üstünlük verdiyini bəyan etməsi, digər tərəfdən bunu qeyri-müəyyən "təhlükəsizlik zəmanətləri" ilə şərtləndirməsi danışıqların uzadılmasına xidmət edən taktiki yanaşma kimi görünür. Halbuki sülhün əsas prinsipi beynəlxalq hüquq, xüsusilə ərazi bütövlüyünün qarşılıqlı tanınmasıdır.

Müasir təhlükəsizlik anlayışı artıq yalnız hərbi gücə əsaslanmır. Bu anlayış siyasi dialoq, iqtisadi inteqrasiya və qarşılıqlı asılılıq üzərində qurulur. Koçaryanın təklif etdiyi model isə daha çox keçmişin uğursuz təcrübələrinə əsaslanır.

Nəticə etibarilə Robert Koçaryanın yenidən hakimiyyətə qayıtması Ermənistan üçün yeni inkişaf mərhələsi deyil, əksinə, köhnə problemlərin və risklərin geri dönüşü anlamına gələ bilər. Bu isə yalnız ölkədaxili sabitliyə deyil, bütövlükdə regionda formalaşmaqda olan həssas sülh prosesinə də ciddi təhdid yaradır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3378
Sifariş 373

Qiyməti 60 qəpik